

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Xalqın xilaskarı, müdrik siyasətçi – ULU ÖNDƏR HEYDƏR ƏLİYEV**



4


SƏS

№ 111 (6794)

24 iyun 2023-cü il.
Qiymәti 60 qәpik


# Hərbi qələbədən diplomatiya zəfərinə!




2

*İLHAM ƏLİYEV: "İkinci Qarabağ müharibəsində Xüsusi Təyinatlı Qüvvələr xüsusi peşəkarlıq və qəhrəmanlıq göstərib"*

# Fransasayağı faşizm

*Fransa özünü dünyaya demokratik ölkə kimi təqdim edir. Guya bu ölkədə insan haqları, seçib-seçilmək hüququ o qədər zərgər dəqiqliyi ilə qorunur ki, bu günə qədər kimsənin narazılığı olmayıb.*



5

## Fit çalmağın yanında ucadan danışmaq nədir ki?..



10

## Sülh danışıqları: açıq qalmış suallar



10

## Əli Kərimli və adamları yenə də təxribatların önündədirlər



12

## Süd anaları niyə qeyb oldu?

*Bəzən dünyaya uşaq gətirən qadının çeşidli səbəblərdən südü olmaya bilir, 30-40 il əvvəl bu kimi hallarda südü olmayan analar uşaqlarına süd anası tapırdılar, bu körpənin süni qida ilə yox, təbii qida ilə böyüməsinə, eyni zamanda, ailə büdcəsinə xidmət edirdi.*



7

## Qurbanlıq üçün hansı heyvanlar kəsilməlidir?



16

# Hərbi qələbədən diplomatiya zəfərinə!




## *İLHAM ƏLİYEV: "İkinci Qarabağ müharibəsində Xüsusi Təyinatlı Qüvvələr xüsusi peşəkarlıq və qəhrəmanlıq göstərib"*





***Düz 24 il öncə, 1999-cu ildə ulu öndər Heydər Əliyevin fərmanı ilə Azərbaycan Ordusunun ən çevik və yüksək döyüş qabiliyyətinə malik bölmələrindən olan Xüsusi Təyinatlı Qüvvələri yaradılıb. Ümummilli lider Heydər Əliyev tərəfindən vahid komandanlıq altında birləşdirilən Azərbaycan Ordusunun bu bölmələri Türkiyə Silahlı Qüvvələri və onun Xüsusi Təyinatlı Qüvvələri ilə sıx əməkdaşlıqla formalaşdırılıb. Artıq son 20 ildə Ali Baş Komandan İlham Əliyev xüsusi təyinatlı qüvvələrə yüksək diqqət yetirir, onların fəaliyyəti, təchizatı, gündəlik məşqləri mütəmadi nəzarətdədir.***

Qeyd edək ki, heç də hər hərbçi Xüsusi Təyinatlı Qüvvələrin üzvü seçilmək hüququ qazanmır. Bunun üçün ağır təlimlər, hərbi imtahanlar, iradə nümayişi vacib şərtlərdən olmaqla, burada əlbəyaxa döyüş, dərin kəşfiyyat, düşmən arxasına keçmə, həyatda qalma, mühəndis, atəş, psixoloji, desant, dalğıc, tibbi, asimmetrik döyüş və sair kimi hazırlıqlar üzrə təlimlər keçirilir. Mübaliğəsiz demək olar ki, Xüsusi Təyinatlı Qüvvələrin şəxsi heyəti 2016-cı ilin Aprel döyüşlərində, eləcə də 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində də böyük şücaət göstəriblər. Torpaqlarımızın düşmən tapdağından azad edilməsində XTQ-nin misilsiz xidmətləri olub. Onların qayalara dırmaşaraq Şuşa şəhərini işğaldan azad etməsi dünya hərb tarixinə düşdü.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 23-də Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birində yaradılan şəraitlə tanış olub, hərbi hissəyə Döyüş bayrağını təqdim edib və heyət qarşısında çıxış edib. Azərbaycan Prezidenti, Ali Baş Komandan çıxışı zamanı çox mühüm məqamlara toxunub, önəmli mesajlar verib. Dövlət başçısı möhtəşəm tarixi Qələbənin qazanılmasından, Zəfərin mənəvi-siyasi və hərbi-strateji əhəmiyyətindən, Xüsusi Təyinatlı Qüvvələrin xüsusi peşəkarlıq və qəhrəmanlığından, yeni mərhələdə ordu quruculuğunun müasir çağırışlara uyğun davam etdirilməsindən və digər bir sıra mühüm məsələlərdən bəhs edib.

”İkinci Qarabağ müharibəsində Xüsusi Təyinatlı Qüvvələr xüsusi peşəkarlıq və qəhrəmanlıq göstərmişdir. Bir çox hərbi əməliyyatların keçirilməsində onların xüsusi rolu var idi”. Bu fikiri Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı deyib.

### “İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA ORDU QURUCULUĞU PROSESİ DAHA GENİŞ VÜSƏT ALMIŞDIR”

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı deyib: ”İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğu prosesi daha geniş vüsət almışdır”. İşğal dövründə ordu quruculuğunun bir nömrəli vəzifə olduğunu vurğulayan dövlətimizin başçısı bildirib: “Ordumuzun, bütün Silahlı Qüvvələrimizin torpaqlarımızın azad olunması üçün hazırlıq işlərinə xüsusi önəm verilirdi və biz buna nail olduq. Vətən müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə yekunlaşmışdır. Ancaq buna baxmayaraq, müharibədən sonra ordu quruculuğu üçün əlavə addımlar atılır və buna böyük ehtiyac var. Çünki dünyada geosiyasi vəziyyət gərginləşir, bölgəmizdə yeni təhdidlər mövcuddur, Ermənistanda revanşist qüvvələr baş qaldırır”.

Prezident İlham Əliyev ordumuzun daha da gücləndirilməsinin bir nömrəli vəzifə olduğunu və buna nail olmaq üçün kompleks tədbirlərin görüldüyünü qeyd edən dövlətimizin başçısı onu da vurğulayıb ki, Vətən müharibəsindən sonra yeni silahların alınması prosesi davam edir və artıq bir çox kontraktlar imzalanmışdır - həm yeni pilotsuz uçuş aparatlarının ölkəmizə gətirilməsi, həm uzaqmənzilli raketlərin ölkəmizə gətirilməsi, o raketlər ki, böyük dağıdıcı qüvvəyə və yüksək dəqiqliyə malikdir.

Bəli, bu gün Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı yeni döyüş birləşmələrinin yaradılmasının döyüş qabiliyyətimizin artırılması üçün önəmli amillərdən olduğunu bildirib.. Və vurğulayıb ki, Müdafiə Nazirliyinin strukturunun təkmilləşdirilməsi prosesi gedir və bu proses davam edir. Hərbi təhsillə bağlı qəbul edilmiş qərarlar, əminəm ki, yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir: ”Yeni döyüş birləşmələrinin yaradılması, ilk növbədə, Komando Qüvvələrinin yaradılması döyüş qabiliyyətimizin artırılması üçün önəmli amillərdən biridir”.

Bəli, bu gün Azərbaycan o ölkələrdəndir ki, öz müqəddəratını özü müəyyən edir, heç kimdən asılı deyil və olmayacaq, öz sözünü açıq deyir və müstəqil siyasət aparır! 44 gün davam edən İkinci Vətən müharibəsi bir daha bunu sübut etdi. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı bir daha Azərbaycanın düşmənlərinə növbəti mesajını ünvanladı: ”Bundan sonra da Ordumuzun daha da gücləndirilməsi üçün bütün lazımi tədbirlər görüləcək. Azərbaycanın düşmənləri bunu bilir, görür, bilməlidir və görməlidir”.

Ardı Səh. 3

# Hərbi qələbədən diplomatiya zəfərinə!



Əvvəli-Səh-2

### "İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA BÖLGƏDƏ GÜNDƏLİYİ MÜƏYYƏN EDƏN YENƏ DƏ BİZ OLDUQ"

Azərbaycan Prezidenti mərasimdə çıxışı zamanı bir daha vurğuladı ki, İkinci Qarabağ müharibəsindən sonra bölgədə gündəliyi müəyyən edən yenə də biz olduq. Bu gün regionda proseslərin yenə də bizim təkliflərimiz əsasında cərəyan etdiyini diqqətə çatdıran Ali Baş Komandan müharibədən sonrakı ilk aylarda Ermənistanın havadarlarının köhnə tezisləri qəbul etdirməyə çalışdıqlarını bildirərək vurğuladı ki, biz bunu qətiyyətlə rədd etdik. "Bu gün hər kəs görür ki, vaxtilə Qarabağ erməniləri üçün hansısa xüsusi status tələb edən qüvvələr artıq tamamilə fərqli açıqlamalar verirlər. Görürük ki, vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistan rəhbərləri indi mənim sözlərimi təkrarlayırlar: "Qarabağ Azərbaycandır!" Yəni, bütün bunlar bizim son iki il yarım ərzində apardığımız siyasətin nəticəsidir".

### "İKİ AY ƏVVƏL ERMƏNİSTAN-AZƏRBAYCAN SƏRHƏDİNDƏ, ONUN LAÇIN İSTİQAMƏTİNDƏ SƏRHƏD-BURAXILIŞ MƏNTƏQƏSİNİN YARADILMASI BİZİM ÇOX GÜCLÜ SİYASİ İRADƏMİZİN GÖSTƏRİCİSİDİR"

Azərbaycan Prezidenti Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsinin yaradılması ilə bağlı bildirdi ki, bu çox güclü siyasi iradəmizin göstəricisidir: "İki ay əvvəl Ermənistan-Azərbaycan sərhədində, onun Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsinin yaradılması bizim çox güclü siyasi iradəmizin göstəricisidir».

«Əgər son iki il yarım ərzində baş vermiş hadisələr təhlil olunarsa, hər kəs görə bilər ki, hər bir addımımızın arxasında güclü siyasi iradə dayanmışdır, güc dayanmışdır, məntiq dayanmışdır, beynəlxalq hüquq dayanmışdır və hər növbəti addım əvvəlki addımın məntiqi davamı idi", - deyə dövlətimizin başçısı qeyd edib. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev çıxışı zamanı vurğuladı ki, Şanlı Zəfərimizi siyasi və diplomatik müstəvidə daha da möhkəmləndirdik: "Bu gün biz öz şanlı Zəfərimizi siyasi və diplomatik müstəvidə daha da möhkəmləndirdik. Bu gün biz bölgədə söz sahibiyik".





Bəzilərinin, o cümlədən Ermənistanın və onun bəzi xarici himayədarlarının Azərbaycanı qisasçılıqda ittiham etdiklərini diqqətə çatdıran dövlətimizin başçısı bunun tamamilə yalan tezis olduğunu deyib: «Mən demişəm və müharibə dövründə demişəm ki, biz düşməndən qisasımızı döyüş meydanında alacağıq, şəhidlərimizin qanını döyüş meydanında alacağıq və belə də oldu. Azərbaycan Ordusu mülki əhaliyə qarşı müharibə aparmamışdır, bunu hər kəs bilir və görür». Dövlətimizin başçısı bizi qisasçılıqda ittiham edənlərə də sərt mesajını ünvanladı: "Ermənistandan fərqli olaraq onların şəhərlərini "İsgəndər", "Toçka" və "Elbrus" raketləri ilə dağıtmamışıq. Azərbaycan Ordusu yüksək mənəvi xüsusiyyətlərə malikdir".

### "BİZ QİSASIMIZI DÖYÜŞ MEYDANINDA ALDIQ. ANCAQ BİZ ERMƏNİ VƏHŞİLİKLƏRİNİ HEÇ VAXT UNUTMAMALIYIQ"

İşğal dövründə şəhərlərimizin yerlə-yeksan edildiyini, tarixi abidələrimizin dağıdıldığını, müqəddəs ocaqlarımızın təhqir olunduğunu və dağıdıldığını xatırladan dövlətimizin başçısı bildirib: "Bunu edən bizim mənfur qonşularımız idi. Buna göz yuman beynəlxalq aləm, beynəlxalq ictimaiyyət və indi hər gün Ermənistana baş çəkən rüşvətxor Avropa məmurları və deputatlarıdır. Onları bu ədalətsizliyə vadar edən nədir? İkili standartlar və rüşvət! Bunun başqa izahatı ola bilməz".

"Bu gün bizə qarşı aparılan çirkin kampaniyanın heç bir əhəmiyyəti yoxdur və olmayacaq. Bizim iradəmizə heç kim təsir edə bilməz", - deyən dövlətimizin başçısı onu da bildirdi ki, əgər Vətən müharibəsi dövründə bizim iradəmizə heç kim təsir edə bilmədisə, bu gün təbii ki, heç kim təsir edə bilməz! Çünki biz haqq-ədaləti tələb edirik.

### AZƏRBAYCAN PREZİDENTİ ERMƏNİSTANLA SÜLH MÜQAVİLƏSİ ÜÇÜN ŞƏRTLƏRİ BİR DAHA XATIRLATDI

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı Ermənistanla sülh müqaviləsinin imzalanması üçün Azərbaycanın şərtlərini bir daha xatırladıb. Ermənistanın keçən ilin oktyabr ayında Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıdığını, ötən ay isə hətta ölkəmizin ərazisinin parametrlərinin qeyd olunduğunu bildirən dövlətimizin başçısı həmin bu ifadələrin kağız üzərində də olmasının və Ermənistan buna imza atmasının zəruriliyini diqqətə çatdırıb. Deyib ki, belə olan halda Cənubi Qafqazda uzunmüddətli sülh yarana bilər. Prezident İlham Əliyev sülh üçün digər mühüm şərtlərin Zəngəzur dəhlizinin açılmasının və Ermənistan ordusunun silahlı birləşmələrinin Qarabağ bölgəsindən çıxarılmasının olduğunu vurğulayıb.

### "ULU ÖNDƏRİN AZƏRBAYCAN ORDUSUNUN FORMALAŞMASINDA XÜSUSİ ROLU VAR"

"Ulu Öndərin Azərbaycan Ordusunun formalaşmasında xüsusi rolu vardır. Hələ sovet dövründə Naxçıvanski adına hərbi məktəbin yaradılması məhz bu məqsədi güdürdü ki, Azərbaycanda peşəkar zabit təbəqəsi yaransın". Bunu iyunun 23-də Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birinə Döyüş bayrağının təqdim olunması mərasimində çıxışı zamanı deyib. "Ulu Öndərin doğum günündə, 100 illiyində mən Şuşada idim. Mən atamın doğum gününü Şuşada qeyd etmişəm və hesab edirəm ki, bu addımda böyük məna var. Şuşa Qarabağın tacıdır. Şuşa azad olunandan sonra Ermənistan dövləti və hökuməti öz məğlubiyyətini qəbul etməyə məcbur olmuşdur. Şuşa bizim gücümüzün, əyilməz ruhumuzun, qəhrəman hərbçilərimizin şücaətinin, qəhrəmanlığının təcəssümüdür", - deyə dövlətimizin başçısı qeyd edib.

Bəli, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev cənablarının toxunduğu mühüm məsələlər bir daha Azərbaycanın yaratdığı reallıqlardır. Və bütün dünya bir daha gördü ki, Azərbaycan güclü dövlətdir, Azərbaycanın güclü ordusu, əsgəri, zabiti dövlətimizi qorumaq üçün canını fəda etməyə hazırdır, necə ki, İkinci Qarabağ müharibəsində canlarını fəda etdilər. Və Ermənistan da, ona havadarlıq edən dairələr də bilir ki, bu gün nə qədər revanşdan danışsalar da müharibə dövründə fərarilik edən erməni toplumu ilə Azərbaycanın yaratdığı reallığa qarşı gəlmək mümkün deyil. Azərbaycan Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında bütün mümkün ssenarilərə uyğun davranmağa hazırdır və bütün şərtlərdə dövlətimizin maraqları ən yüksək səviyyədə təmin ediləcək.

Ancaq mənfur düşmən unutmamalıdır ki, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımları Qarabağı qısa zaman kəsiyində dirçəldəcək, ərazilərimiz minalardan təmizləniləcək və insanların öz el-obalarına geri dönəcəklər. Budur, Ali Baş Komandanımızın diplomatik siyasətinin nəticəsi! Budur Güclü Ordumuzun gücü, budur mübariz, igid əsgərlərimizin rəşadəti! Bu nailiyyət və qələbələr həm də Xalq-Ordu Birliyinin, orduya olan inamın Qələbəsidir! Çünki Ali Baş Komandanın apardığı diplomatik siyasəti düzgün siyasətdir, uğurlu siyasəti haqq işidir! Çünki Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır!

***RƏFİQƏ KAMALQIZI***

TƏHLİL

# Xalqın xilaskarı, müdrik siyasətçi – ULU ÖNDƏR HEYDƏR ƏLİYEV

***30 il bundan öncə, 1993-cü il iyunun 24-ü Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyəti Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevə həvalə olunur. O zaman ölkəmiz öz həyatının çox ciddi siyasi-ictimai çətinlikləri ilə üz-üzə qalmışdır. 1993-cü ilin iyununda baş vermiş hadisələr müstəqilliyini bərpa etmiş Azərbaycanı uçuruma aparırdı. Vurğulayaq ki, müstəqilliyimizin bərpası asan əldə olunmadı, gərgin ictimai-siyasi vəziyyət və böyük qurbanlar bahasına əldə edildi. 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi.***



Tarixi reallıqlar, bir daha göstərdi ki, 71 illik sovet rejimi Azərbaycan xalqının müstəqillik arzularının üstündən xətt çəkə bilməmişdi. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, Azərbaycan özünün əsl müstəqilliyini Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi.

Azərbaycanı gözü götürməyən qüvvələr xalqımızın uğrunda ardıcıl mübarizə apardığı milli azadlığına, dövlət müstəqilliyinə mane olmaq və onun mübarizə əzmini qırmaq üçün ən məkrli siyasi təxribatlara əl atdılar. Ermənistanın Azərbaycan torpaqlarının işğalı, respublikamızı daxildən parçalamaq və xalqımızı vətəndaş müharibəsi girdabına sürükləmək kimi cəhdləri Azərbaycanı olduqca çətin bir vəziyyətlə üz-üzə qoydu. Öz müstəqilliyini bərpa etmiş Azərbaycanın idarəçiliyində duranlar AXC-Müsavat cütlüyü ölkəni parçalanmaq və tamamilə məhv olmaq təhlükəsi ilə üzbəüz qoymuşdu. Çünki hakimiyyətdə olan səriştəsiz rəhbərlər mövcud təhlükələrin qarşısının alınması istiqamətində lazımi tədbirləri görmək gücündə deyildilər.

1993-cü ilin yayında ölkədə vəziyyət getdikcə ağırlaşdı, Hakimiyyət strukturlarına, o cümlədən, silahlı birləşmələrə nəzarəti itirən o zamankı Azərbaycan iqtidarı isə, 1993-cü ilin yayında ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoydu. Artıq bir sıra ərazilərdə - Gəncədə, Lənkəranda, Qusarda və digər regionlarda bəzi silahlı birliklər separatçı iddialarla çıxış edib, mərkəzi hakimiyyətə tabe olmadıqlarını bildirirdilər.

### “1993-CÜ İLİN İYUN AYINDA AZƏRBAYCANDA BÖYÜK DÖVLƏT BÖHRANI YARANDI”

4 iyun 1993-cü ildə Gəncədə Azərbaycan Ordusunun keçmiş korpus komandiri Surət Hüseynovun başçılıq etdiyi hərbi qüvvələrlə hökumət qüvvələri arasında silahlı toqquşma baş verdi. Məlum hadisə nəticəsində hökumətə tabe olmayan hərbçilərlə hökumət qüvvələri arasındakı toqquşmada, ümumilikdə, 35 nəfər həlak oldu.

Gəncə hadisələri kimi tarixə düşən 4 iyun hadisələri AXC-Müsavat hakimiyyətinin iflası ilə nəticələndi. 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanı təhlükədən xilas etdi. O dövrdə baş verən hadisələr bir daha tarixi gerçəkliyi üzə çıxarmış olur. Belə ki, 1993-cü ilin iyununda xalqın dəvəti ilə Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtmasaydı, bu gün Azərbaycanın müstəqilliyindən söhbət açmaq mümkün olmayacaqdı. Ulu Öndər Heydər Əliyev bu məsələ ilə bağlı çıxışlarının birində belə deyirdi: ”1993-cü ilin iyun ayında Azərbaycanda böyük dövlət böhranı yarandı. Azərbaycan dağılmağa başladı və o vaxtkı iqtidar ölkəni idarə edə bilmədi. Gəncədə toqquşma baş verdi və qan töküldü. Gəncədə başlayan hərəkat Azərbaycanın ərazisinin, demək olar ki, yarısından çoxunda hakimiyyəti öz əlinə aldı. Vaxtilə məni təqib edən, Naxçıvanda məni devirmək və Azərbaycandan sıxışdırıb çıxarmaq istəyən o vaxtkı iqtidar, belə bir zamanda, əlacsız qaldı və mənə müraciət etdi. Ancaq ondan əvvəl mənə müraciət edənlər bizim partiyanın üzvləri, Azərbaycanın müxtəlif təbəqələrinin nümayəndələri və ziyalıları oldu. Onlar məni yenidən Bakıya dəvət etdilər”.

İctimai, siyasi və tarixi əhəmiyyətə malik olan 1993-cü ilin 15 İyun Milli Qurtuluş Günü - Azərbaycanın inkişafında, müstəqilliyində müstəsna rol oynayan tarixi gündür. Xilaskarlıq missiyasını öz üzərinə götürən Heydər Əliyev daxili və xarici düşmənlərimizin bütün planlarını iflasa uğradaraq, 1993-cü il iyunun 9-da Bakıya gəldi və 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi və həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu.

Ulu Öndər Heydər Əliyevin öz müqəddəs xilaskar missiyasıyla böyük siyasətə qayıdışı ilə Azərbaycanda illərlə davam edən anarxiyaya, siyasi hakimiyyətsizliyə, hərbiləşmiş cinayətkar dəstələrin qətl və özbaşınalıqlarına son qoymuş oldu. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart dövlət çevrilişi cəhdləri ən yeni tariximizin qara ləkələri kimi keçmişə həkk olunub. Bu təxribatlar müdrik siyasətçinin son dərəcə tədbirli, təmkinli və uzaqgörən siyasəti sayəsində baş tutmadı.

### “AZƏRBAYCANDA HƏQİQİ DEMOKRATİYA PRİNSİPLƏRİ YARANMALIDIR, İNKİŞAF ETMƏLİDİR”

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib. O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi. Heydər Əliyev qanunun aliliyi, azad vətəndaş cəmiyyəti prinsiplərinin bərqərar olması zəruriliyini dönə-dönə vurğulayırdı: ”Azərbaycan Respublikası demokratik yolla getməlidir, Azərbaycanda həqiqi demokratiya prinsipləri yaranmalıdır, inkişaf etməlidir, Azərbaycanda siyasi plüralizmə imkan yaradılmalıdır. Azərbaycan çoxpartiyalı bir cəmiyyət kimi yaranmalıdır, partiyaların fəaliyyətinə şərait yaradılmalıdır. Azərbaycan bazar iqtisadiyyatı yolu ilə, sərbəst iqtisadiyyat yolu ilə getməlidir. Azərbaycanda milli həmrəylik, insanlar, siyasi partiyalar, qurumlar arasında sülh və sağlam rəqabət əhval-ruhiyyəsi yaranmalıdır.”

### HÜQUQİ DÖVLƏTİN AZƏRBAYCAN MODELİ

Zəngin dövlətçilik təcrübəsinə malik olan böyük strateq Heydər Əliyev hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi. Heydər Əliyevin müəllifi olduğu 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında hüquqi dövlətin bütün prinsipləri - qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olundu, insan haqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edildi.

1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açdı. 1994-cü ildə milli neft strategiyasının əsası qoyuldu. ”Əsrin müqaviləsi” imzalandı. Neft strategiyasının beynəlxalq layihələrin və iqtisadi proqramların həllinə doğru istiqamətləndirilməsi ölkəmizdə bu tükənməz sərvətdən əldə olunan gəlirin qat-qat artırılmasına səbəb oldu.

### UĞURLARI ŞƏRTLƏNDİRƏN AMİLLƏR-AZƏRBAYCAN XALQININ HƏMRƏYLİYİ, XALQ-İQTİDAR BİRLİYİ

Azərbaycanda bu gün müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində Ümummilli Lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Onun siyasi xadim olaraq yürütdüyü siyasətin başlıca qayəsi Azərbaycanı hər bir vətəndaşının təhlükəsizliyini qoruya biləcək qədər qüdrətli dövlətə çevirmək olmuşdur. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq, müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. 2003-cü ildən etibarən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrdə yeni nailiyyətlərlə müşahidə olunan sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Müasir yanaşmalar və milli iqtisadi prioritetlər əsasında mükəmməl islahatlar konsepsiyasının reallaşdırılması nəticəsində Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasındadır. Bu gün Azərbaycanı 1990-cı illərin əvvəli ilə müqayisə etmək mümkün deyil. Əgər Azərbaycanın müstəqilliyinin ilk illərində baş verən hadisələrin qarşısı alınmasaydı və Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı olmasa idi, əlbəttə ki, bu günün Azərbaycan reallıqlarından belə söhbət açıla bilməzdi.

Bu gün müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər keçirilir. Azərbaycan regionun ən güclü və nüfuzlu dövlətinə çevrilib.

Prezident İlham Əliyevin son 20 ildə həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Azərbaycan ordusunun döyüş taktikası dünya ölkələrində öyrənilir. Azərbaycan 44 günlük Vətən müharibəsində dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə qalib dövlət oldu. Azərbaycan ZƏFƏRİ ilə milli irsinə sahib oldu 30 ilə yaxın öz ata-baba yurdundan uzaq düşən, əzəli torpaqlarımızın həsrəti ilə yaşayan insanlar artıq vətən torpağının ətrini duyurlar. 44 günlük Vətən müharibəsi bu insanların acı talelərinə bir sevgi, əbədi bir dünya bəxş etdi. Vaxtilə qovularaq, elobalarından qaçqın düşənlərin ruzigarlarına salınan naxış bu gün öz rəngini dəyişib. Viran qalmış yurd yerlərinə artıq sahibdirlər. Aylarını, illərini bir gün yenidən doğma yurdlarımıza qaydıcağıq ümidi ilə yaşayan doğmalarımız bu gün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev rəhbərliyi işğaldan azad olunan torpaqlarımıza qovuşublar. Bundan gözəl nə ola bilərdi ki?!

Əlbəttə ki, 30 il erməni işğalında qalan ərazilərimizdə erməni vandalların törətdikləri vəhşiliklərin nəticəsində yurd yerləri dağdılmış, viran qoyulmuşdur. Azərbaycan ərazisində erməni vandalları tərəfndən qismən və ya tamamilə dağıdılmış, talan edilmiş və ya hər hansı bir şəkildə zərər çəkmiş tarixi-memarlıq abidələrimiz əlbəttə ki, tədricən bərpa və təmir olunur və olunacaqdır. Yaxın gələcəkdə bütün tarixi abidələrimiz öz görkəmini alacaqdır.

Azərbaycan xalqının həmrəyliyi, xalq-iqtidar birliyi uğurları şərtləndirən amil olduğundan ölkəmizi daha da böyük nailiyyətlər gözləyir. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bundan sonra da öz tarixinin yeni, şanlı səhifələrini yazaraq, daha yüksək zirvələr fəth edəcəkdir.

***Zümrüd BAYRAMOVA***

# Fransasayağı faşizm





***Fransa özünü dünyaya demokratik ölkə kimi təqdim edir. Guya bu ölkədə insan haqları, seçib-seşilmək hüququ o qədər zərgər dəqiqliyi ilə qorunur ki, bu günə qədər kimsənin narazılığı olmayıb. Əvvəla qeyd etçək yerinə düşər ki, demokratiyadan, insan haqlarından, dini və irqi ayrı-seçkilikdən danışan ölkələrin ən sonunda Fransanın gəlməsi heç də təəccüblə qarşılanmamalıdır.***





Fransa cəmiyyətində Afrika əsilli vətəndaşlara hələ də 5-ci növ insan kimi baxılır. Hələ də kübar fransız ailələrində qullar saxlanılır, köləlik cəmiyyətin həyat tərzinə çevrilib. Ağdərili fransızların hüququ qaradərili və yaxud ərəb əsilli Fransa vətəndaşlarınınkından iki pillə irəlidədir. Hələ indiyədək məhkəmələrdə qaradərili, yaxud ərəb əsilli birinin fransızı udması görünməyib. Əslində bütün bunlar Fransanın kölgə konstitusiyasında yağlı hərflərlə yazılıb. Ona görə də vəkil də, hakim də, müttəhim də, şikayətçi də nəticənin nə olacağını əvvəlcədən bilir və ona görə də səsini çıxarmır.

Fransa uzun illər Afrika və Latın amerikasında, Yaxın şərqdə, Okeaniyada müstəmləkəçi obrazı ilə tanınıb. Dünyanın adını çəkdiyimiz qitə və materiklərində yerli əhaliyə qarşı misli görünməmiş vəhşiliklər törədən Fransa müstəmləkəçiləri insanları qul kimi çəkib bir yerdən başqa bir yerə aparıblar, plantasiyalarda ölənəcən işlədib, onlarla heyvan kimi davranıblar.

### Əlcəzairdə Fransa barbarlığı

Fransa 1830-cu ildə Əlcəzairin ərazini işğal edib. 1962-ci ildə müstəqilliyini əldə edənə qədər Fransa Əlcəzairi fransızlaşdırmaq üçün əlindən gələni edib, xalqı assimilyasiyaya məruz qoyub. Məqsəd isə məhz fransız Əlcəzairi yaratmaq olub. Bunun üçün XIX əsrin sonlarında bir milyona yaxın fransız Əlcəzairə yerləşdirilib. Gəlmələrə böyük imtiyazlar və imkanlar verilib. Dolayısıyla başlanılan kampaniya stimul da almış olub. Təbii ki, fransızların bölgəyə köçü əlcəzairlilərin işsizlik problemlərini daha da artırıb. Bu vəziyyət isə sanki bumeranq effekti yaradaraq Əlcəzairdən Fransaya axına da gətirib çıxarıb.

I Dünya Müharibəsindən sonra Əlcəzairdə fransız işğalına qarşı milli mücadilə formalaşıb. Bu mübarizənin öndəri Şeyx Abdullah Mən Badis olub. Şeyx Abdullahın "İslam mənim dinim, ərəb dili dilim, Əlcəzair vətənimdir" sözləri başlanan mübarizənin şüarına çevrilib. Gözlənildiyi kimi, şeyxə qarşı Fransanın reaksiyası sərt olub və o, həbs edilib. Beləcə istiqlal savaşının yatırılmasına cəhd göstərilib. Repressiyaların ardından II Dünya Müharibəsinin başlaması da mövcud istiqamətdəki fəaliyyətə təsirsiz ötüşməyib. Həmin dövrdə Fransa əlcəzairlilərin tərəfdaşlığı qarşılığında onlara azadlıq vədi verib.

Lakin dünya savaşı sona çatdıqdan sonra Paris vədlərinə xilaf çıxdı. Əlcəzairlilər həm qələbəni qeyd etmək, həm də azadlıqlarına qovuşmaq üçün bayraqlarla Setif şəhərində böyük nümayişə çıxdılar. Fransanın bu nümayişə reaksiyası Əlcəzair xalqına insanlıq tarixinin ən faciəvi günlərindən birini yaşatdı. Fransız ordusu havadan və qurudan bölgəyə hücum çəkdi. Bir neçə gün çəkən hərbi aksiyada 45 min adam həyatını itirdi. Qırğınlar fonunda Əlcəzairdə yaranmış Qurtuluş Təşkilatı mübarizə səhnəsinə çıxdı. Beləcə ölkədə 1954-cü il oktyabrın 31-də yadelli təcavüzə qarşı böyük qiyam başlandı.

Fransa qiyama həbslər və hərbi güclə cavab verdi, ölkəyə 500 min əsgər göndərdi. Yerliləri qorxutmaq məqsədilə ələ keçirilən müqavimətçilərə ağır işgəncələr tətbiq olundu. Minlərlə insan mühakiməsiz edam edildi. Fransızlar bölgədə qala bilmək üçün işgəncə və qırğınları davam etdirdilər. Ancaq bütün bunlar xalqın əzmini sarsıtmadı, əksinə mücadilə gücləndi. Üstəlik ölkədən kənarda Əlcəzair Respublikasının müvəqqəti hökuməti quruldu. Bütün bu hadisələr isə Fransada siyasi böhrana gətirdi. Əlcəzairlilərin müqaviməti qarşısında davam gətirməyən Fransa xalqın müstəqillik yolundan çəkilərək referendum keçirilməsinə razılıq verdi. Beləliklə Fransa müstəmləkə bildiyi məmləkətə azadlıq vermək məcburiyyətində qaldı. Səkkiz ilin istiqlal savaşı 1 milyon əlcəzairlinin həyatı bahasına başa gəldi.

### Köhnə və yeni Fransa oxşarlığı

Əlcəzairin xarici işlər naziri Əhməd Ataf fransalı həmkarı Ketrin Kolonnanın Əlcəzairin milli himnini bu yaxınlarda redaktə etməsi ilə bağlı tənqidlərinə cavab verib. Romada rəsmi səfərdə olarkən Ataf İtaliyanın "Nova" xəbər agentliyinə "Fransa xarici işlər nazirinin Əlcəzairin milli himni ilə bağlı fikir bildirə biləcəyini düşünməsi bizi heyrətə salıb" deyə etirazını bildirib.

"Bəzi Fransız partiyaları və ya siyasətçiləri üçün Əlcəzairin siyasi məqsədlər üçün asan bir mövzuya çevrildiyi təəssüratları yaranır" deyə Ataf İtaliya qəzetinə açıqlamasında xüsusi vurğulayıb. Qeyd edək ki, Kolonna keçən həftə Fransanın LCI xəbər kanalına Əlcəzairin milli himninə 20-ci əsrin ortalarında ölkənin fransızlardan müstəqillik uğrunda mübarizəsinə aid bir misranın yenidən əlavə edilməsinin "köhnəldiyini" söylədikdən sonra vəziyyət gərginləşib.

"Zamanın konteksti bunu izah etsə də, deməliyəm ki, mən özümdən soruşuram ki, bu, bir az köhnəlmiş görünür", deyən Kolonna guya münasibətlərin əvvəlki kimi olmadığını büruzə verməyə çalışsa da, xanım baş diplomatın "tülkü siyasəti" açıq şəkildə özünü göstərib.

1962-ci ildə Əlcəzairin uzun və amansız müharibədə Fransadan müstəqillik əldə etməsindən sonra qəbul edilmiş himnin bərpa edilmiş misrasında Fransanın adı açıq şəkildə çəkilir və "hesab günü" vəd edilir.

Himndə deyilir: "Ey Fransa, məzəmmət vaxtı bitdi, Biz onu kitabı bitirmiş kimi bitirdik. Ey Fransa, bu haqq-hesab günüdür, Cavabımızı bizdən almağa hazırlaş!". Bu cümlələr əvvəllər Parislə gərginlikdən qaçmaq, xüsusən də Əlcəzairin 1980-ci illərdə neft böhranı səbəbindən iqtisadi çətinliklərlə üzləşdiyi dövrdə himndən çıxarılmışdı.

Şənbə günü isə bu addım Əlcəzair və Paris arasında siyasi gərginliyin artması fonunda baş verib, çünki tarixi narazılıqlar münasibətlərə təsir etməkdə davam edir. Əlcəzair-Fransa əlaqələri 2021-ci ilin sonlarında Fransa prezidenti Emmanuel Makronun Əlcəzair tarixi ilə bağlı mübahisəli şərhlərindən sonra böhrana düşüb. Əlcəzair Fransanın müstəmləkə keçmişinə tənqidi yanaşır və onun müstəmləkəçilik dövründə törətdiyi haqsızlıqları tanımağa və üzr istəməyə çağırır.

Keçən yay Fransa prezidenti Makron müstəqillik qazandıqdan 60 il sonra Əlcəzairə səfər edərkən özünü barışıq tərəfdarı kimi təqdim etməyə çalışmışdı. Amma işğalçı ölkənin prezidentinə münasibət adekvat olmuşdu. İnsanlar hətta onu yumurta yağışına tutmuşdular, görüşmək istədiyi kütlə ona arxasını çevirib getmişdi.

### Fransanın Ruanda soyqırımı

Qondarma "erməni soyqırımı" məsələsi Fransa parlamentinə yol tapanda Türkiyə Fransanın Əlcəzair və Ruandada törətdiyi vəhşilikləri qabartmağa başladı. Bu baxımdan, Türkiyənin o vaxtkı baş naziri Rəcəb Tayyib Ərdoğanın ittihamları və mesajları xüsusi önəm kəsb etdi. Fransa hakimiyyətinin vaxtilə Əlcəzair və Ruandada həyata keçirdiyi siyasəti "soyqırım" kimi rəsmiləşdirməyə çağıran Ərdoğan "soyqırım görmək istəyənlər dönüb öz çirkli, qanlı tarixlərinə baxsınlar Əgər Fransa Senatı tarixlə maraqlanmaq istəyirsə, Ruanda və Əlcəzairdə yaşananlara açıqlıq gətirsin..." deyə bildirdi.

Ardı Səh. 6

# Fransasayağı faşizm



Əvvəli-Səh-5

Ermənilərin heç bir fakta, tarixi qaynaqlara əsaslanmadan hər il dünyaya car çəkərək türklərin ayağına yazmağa çalışdıqları misilsiz vəhşiliklər Ruanda və Əlcəzairdə, təkcə yerlilərin deyil, eləcə də xaricilərin gözü önündə törədilmişdi. Bəs görəsən, sözügedən ölkələrdə konkret olaraq nələr baş vermişdi?

Afrikanın mərkəzində yerləşən Ruanda I Dünya müharibəsindən sonra Belçikanın payına düşürdü. Ərazi təbii qaynaqlar baxımından heç də zəngin yer deyildi. Qəhvə istehsalından başqa əhəmiyyətli istehsal sahəsi yox idi. Ruanda xalqının 90 faizi hutu, 9 faizi tutsi, 1 faizi piqmey qəbiləsinə məxsusdur.

Böyük intervensiyalara qədər bu qəbilələr əsrlərdir, birlikdə yaşayırdılar. Aralarında ciddi sayılacaq ədavətlər də olmurdu. Lakin Belçika Ruandanı asanlıqla idarə etmək üçün iki qəbilə arasında süni ayrı-seçkilikçilik yaratdı. Azlıqda olan tutsiləri ölkədə yüksək mövqeyə gətirərək hutularda nifrət hissini oyatdı. Belçikanın müstəmləkə rəhbərliyi tutsilərin hutulara nisbətən üstün olduqlarını, hutuların aşağı irqə məxsusluqlarını təlqin etdi və onları təhsildən uzaqlaşdırmağa çalışdı. Nəticə etibarilə iki xalqı bir-birinə düşmən salmaq siyasəti gözlənilən "nəticəni" verdi.

II Dünya Müharibəsindən sonra Ruanda müstəmləkəçilik dövrü sona çatdı. 1962-ci ildə ölkənin müstəqilliyi elan olundu. Keçirilən seçkiləri hutular qazandı. Bu isə yaxınlaşan təhlükənin ayaq səsi idi. Hutu hökuməti tutsiləri sürgünə məcbur etdi. Tutsilərin yarıdan çoxu qonşu ölkələrə sığınmaq məcburiyyətində qaldı. Həmin vaxt Çinə yüz minlərlə kiçik baltalar sifariş verildi. Balta çatmayanda isə iti uclu dəyənəklər hazırlandı. Hər şey qırğına hazırlıq üçün nəzərdə tutulmuşdu. Fanatik hutulara hücum bəhanəsini 6 aprel 1994-cü ildə hutu əsli Ruanda dövlət başçısının təyyarəsinin vurulması verdi. Bundan sonra ölkədə sözün həqiqi mənasında tutsi ovuna başlandı. Bir neçə ay içində 600 min insan qətlə yetirildi. Qırğının miqyasının böyüdüyünü görən qonşu ölkələrdə təşkilatlanmış tutsilər də hərəkətə keçdilər və paytaxta qədər irəlilədilər. Maraqlı eyni zamanda acınacaqlıdır ki, həmin vaxtadək baş vermiş vəhşiliklərə reaksiya verməyən Fransa hutu hökumətinə hərbi dəstək göstərməyə qalxdı. Bu dəstəyin nəticəsi idi ki, müştərək qırğına məruz qalmış tutsi və hutulardan ümumilikdə 800 minə qədəri öldürüldü. Yekunda təməli Belçikanın ayrı-seçkilik siyasəti ilə qoyulan faciə Fransanın yaxından dəstəyi ilə SOYQIRIMI miqyasını aldı.

### Dünya buna necə baxır?

Bu gün dünya birliyi Fransanın Əlcəzairdə, Ruandada, Malidə, habelə Kamboca və Cənubi Vyetnamda törətdiyi müharibə cinayətlərinə zamanında reaksiya versəydi, bu gün Paris özünü qlobal ombudsman kimi aparmağa cürət etməzdi. Yalnız Əlcəzairdə 10 milyon, Ruandada 800 min insanın qətli əmrini vermiş bir dövlət bu gün beynəlxalq hüquq adına söz haqqına malik olmamalıdır. Elə Fransa Senatında qəbul olunan anti-Azərbaycan layihələrinə baxsaq, bu, beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə açıq müdaxilədir. Paris bu layihə ilə dövlət sərhədlərinin toxunulmazlığı, dövlətlərin ərazi bütövlüyü, dövlətlərin daxili yurisdiksiyasına aid olan məsələlərə qarışmamaq, habelə beynəlxalq hüquq çərçivəsində öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsiplərinin kobud pozuntusuna yol verib.

İslam dininə ibadət edən insanların Avropa ölkələrində demoqrafiq vəziyyəti ilə bağlı Vaşinqtonda yerləşən "Pew Research Center" adlı beyin mərkəzi tərəfindən dərc olunmuş araşdırmaya əsasən, Fransa əhalisinin 8,8 faizini (5,7 milyon nəfər) müsəlmanlar təşkil edib. Almaniyanın "Statista" şirkətinin də statistik rəqəmlərinə görə Fransa əhalisinin 8 faizi müsəlmanlardan ibarətdir. Avropa şəhərləri arasında Paris şəhəri və İl-dö-Frans regionu müsəlman əhalinin sayına görə birinci yerdədir. Burada 2,8 milyon müsəlman əhalinin yaşadığı güman edilir. Fransa 67,5 milyon əhalisi ilə Avropa İttifaqı ölkələri sırasında müsəlmanların say göstəricisinə görə birinci yeri tutur. Ölkə tarixində ilk dəfə olaraq 2020-ci ilin yanvar ayında Fransanın daxili işlər naziri Kristof Kastaner nifrət zəminində cinayətlərin statistikasını dilə gətirib. O, 2019-cu ildə Fransada antisemitizm hərəkətlərinin 2018-ci illə müqayisədə 27 faiz, müsəlmanları hədəfləyən hərəkətlərin isə 54 faiz artdığını, xristianlara qarşı hərəkətlərin sabit qaldığını etiraf edib.

Ksenofobiyanın bariz nümunələrindən sayılan islamofobiya meyilləri müasir Fransa cəmiyyətində geniş vüsət almış vəziyyətdədir. Bu ölkədə müsəlmanların təqib və təhqir olunması artıq tendensiyaya çevrilib. Üstəlik, bu hərəkətlər spontan deyil, əvvəlcədən planlaşdırılmış qaydada və müəyyən siyasi dəstək əsasında edilir. Fakt onu göstərir ki, Fransada təkcə siyasi dəyərlər aşınmaya məruz qalmır, eyni zamanda, ideoloji, mənəvi və dini ayrı-seçkilik artır, sivilizasiyaların toqquşması tezisi təbliğ edilir. Ölkə əhalisinin 10 faizə yaxın hissəsini müsəlmanların təşkil etməsinə baxmayaraq, siyasi elita və tanınmış ictimai xadimlər, eləcə də əhalinin çoxluq təşkil edən hissəsi arasında anti-İslam əhvali-ruhiyyəsi



kifayət qədər yüksəkdir.

Fransız müstəmləkəçilərin əsrlər boyu davam edən və yeni dövrün tarixinə qədər uzanmaqla müsəlman ölkələri və müsəlmanlara qarşı törətdiyi cinayətlərin miqyası həddindən artıq böyükdür. Fransa dünyanın müxtəlif regionlarında – Amerika, Afrika, Asiya qitələrində, Okeaniya bölgəsində 50-dən artıq dövlətin ərazisini işğal edib, sərvətlərini talan edib, xalqlarını uzun illər əsarətdə saxlayıb, milyonlarla insanı qətlə yetirib və kölə halına salıb, insanlıq və bəşəriyyət əleyhinə cinayətlər, eləcə də nüvə sınaqları həyata keçirməklə Əlcəzairin müsəlman əhalisinin sağlamlığına ciddi ziyan vurub, müharibə cinayətləri törədib.

### "Bizə Fransanın "demokratiya modeli" lazım deyil"

Makronun fransalı imperialist qüvvələrini Malidən çıxarmaq lazımdır. Bu gün Afrikada Fransanın uzun müddət müstəmləkəsi olmuş Malidə hər kəs belə düşünür. Mali öz tarixində dəfələrlə Fransanın müstəmləkə siyasətinin vəhşilikləri ilə üzləşib. Bu ölkənin öz mədəniyyəti və öz dəyərləri, irsi və demokratiyası var. Fransa Mali xalqının kimliyini və mədəniyyətini məhv edib, hətta rəsmi dilini belə fransızlaşdırıb. Bu ölkədə hər kəs fransızca danışa bilsə də, artıq bu dildə danışmaq istəməyənlər sırası sıxlaşmaqdadır. Əlbəttə, malililərin ana dili ola-ola niyə fransız dilindən istifadə etməlidirlər?

Mali əsl müstəqilliyi dadmaq istəyir. Afrikada bir çox ölkələr yalnız kağız üzərində müstəqildir. Fransa əslində bu ölkələrin sərvətlərinin sahibdir. Mali və Fransa arasındakı münasibətlər 2021-ci ilin sonunda Mali hərbi hakimiyyətinin Parisi sərt tənqid etməsi səbəbindən xeyli pisləşib. 2022-ci ilin yanvarında Mali keçid hökuməti Fransa səfirini ölkədən çıxarıb. Bundan başqa, keçid hökuməti Fransa qoşunlarının ölkədən dərhal çıxarılmasını tələb edib. Nəticədə ötən ilin avqustunda sonuncu fransız hərbçisi Mali ərazisindən çıxıb.

### Fransanı Afrikada diz çökdürən səbəb

Afrika qitəsində özünü əsl söz sahibi kimi aparan, soyqırımları törədən, "qara qitə"nin xalqlarına zülm edən, onlara kölə təfəkkürü ilə yanaşan Paris artıq nüfuzunu itirib, "persona non-qrata"ya çevrilib. Bunu Fransa hərbçilərinin bu yaxınlarda Çadda saxlanması, Konqo liderinin Makrona məzəmməti, avropalı diplomatlara verilən "daimi veteran səfir" adının ləğvi də sübut edir.

Əsrlər boyu Avropanın müstəmləkə ərazisi olan Afrika hegemon gücə qarşı üsyan qaldırıb. Əlcəzair, Burkina Faso, Mali və Mərkəzi Afrika Respublikası ya Fransanı qovub, ya da cənub qitəsini tərk etməyə məcbur edib. Son nümunə kimi Çad Sudanla sərhəddə icazəsiz fəaliyyət göstərən fransız əsgərlərini həbs edib.

Onilliklər boyu Afrikanı istismar edən və regionda qeyri-sabitliyin əsas günahkarı hesab edilən Fransa qitədə persona non-qrata çevrilib. Əlcəzairdən Burkina Fasoya qədər bir çox ölkə öz ərazilərində keçmiş müstəmləkəçinin varlığını silmək qərarına gəlsə də, bu yaxınlarda Çad Sudanla sərhəddə icazəsiz hərəkət edən fransız hərbçilərini həbs edib. Sosial mediada yayılan görüntülərdə Çad əsgərlərinin beş fransız əsgərini birbirinin ardınca oturtduğu, silah və avadanlıqlarını götürdüyü görünür. Burkina-Faso və Mali kimi bir çox Afrika ölkələrindən qovulmuş Fransaya qarşı bu cür münasibət bir daha nümayiş etdirdi ki, müstəmləkəçi dövlətin qitədəki təsirləri zəifləyir. Yayımlanan videoda Çad əsgəri tərcüməçi vasitəsilə fransız əsgərlərinə "İcazə sənədiniz varmı?" sualı ilə müraciət edib. Cavab almayan Çad zabiti vəziyyəti bildirmək üçün rəhbərlərinə zəng edib. Çad hərbçilərinin telefonla danışarkən qeyd etməsi də diqqətçəkən məqam olub: "Mən bazaya icazəsiz daxil olan fransız əsgərlərini saxlayıb silahlarını götürdüm".

Rəsmi açıqlama verən Çad təhlükəsizlik mənbələri fransız əsgərlərinin icazəsiz bazaya daxil olduğunu bildirib. Fransa ordusunun sözçüsü Pierre Gaudilliere hadisənin iyunun 8-də baş verdiyini qeyd edərək, "Bu, çox aqressiv şəkildə edilib" deyib.

Bəzi Twitter istifadəçiləri Fransa hərbçilərinin döyüşlərin getdiyi Sudanla sərhəddə görünməsini "şübhəli" adlandırıblar. İstifadəçilərdən biri onu da qeyd edib ki, əsgərlərin saxlanması Fransa ordusunun Afrika qitəsində təsir imkanlarını itirməsinə işarədir.

Ötən il Bamakonun tələbi ilə Fransa iki ölkə arasında münasibətlərdə siyasi böhran fonunda 2013-cü ildə yerləşdirilmiş qoşunlarını Malidən çıxarmağa məcbur olub. Malidə 2,3 min fransız əsgəri var idi. Fransa ordusu Barkhane əməliyyatı çərçivəsində terrorla mübarizə aparmaq üçün bölgədə olub və mandat dövründə terror hücumları artıb. Fransanın Malidəki çoxsaylı çevrilişlərə görə də məsuliyyət daşıdığı güman edilir. Ötən ilin dekabrında Mərkəzi Afrika Respublikası (MAR) ərazisində yerləşən Fransa ordusunun bütün hissələri bu ölkəni tərk etmək məcburiyyətində qalıb. Burada 130 fransız əsgəri xidmət edirdi. 2022-ci ilin noyabrında CAR həmin ilin avqustunda fransız diplomatlarına verilən "daimi veteran səfir" adını ləğv etdi. Bundan sonra Paris administrasiyası CAR ilə hərbi müqavilələrini dayandırıb və iki ölkə arasında gərginlik ciddi şəkildə artıb.

### Makrona Konqo liderindən məzəmmət

Emmanuel Makronun mart ayında Konqoya səfəri zamanı bu ölkənin prezidenti Feliks Tşisekedinin tənqidi ilə üzləşib. "Fransa və Avropa əməkdaşlığının formasını dəyişməlidir", - Konqo lideri bildirib. Əlavə edib ki, bizə fərqli şəkildə baxın, bizə hörmət edin, bizi əsl tərəfdaşlar kimi görün və hər zaman paternalist bir baxışla deyil. Onun "Bizə hörmət et, bizə atamız kimi baxma" sözləri Fransa liderinə soyuq duş kimi təsir etdi.

Bu ilin fevral ayında Burkina-Fasoda yerləşən və Sabir əməliyyatında iştirak edən bütün Fransa hərbçiləri ölkəni tərk etmək məcburiyyətində qalıb. Burkina Fasoda 30 sentyabr 2022-ci ildə hakimiyyətə gələn hərbi hökumət yanvarın 23-də Fransa ilə əməkdaşlıq müqaviləsini ləğv etdiyini və fransız əsgərlərinə ölkəni tərk etmələri üçün 1 ay vaxt verdiyini açıqlayıb. Saber əməliyyatı çərçivəsində Uaqduquya yerləşdirilən kontingent Fransa Xüsusi Əməliyyatlar Komandanlığının 400 əsgərindən ibarət idi.

Atalar məsəlidir, nə tökərsən aşına, o da çıxar qaşığına. Fransa bu gün keçmişdə etdiyi cinayətlərin bədəlini ödəyir. Afrika xalqlarına etdiyi zülmlər yerdə qalmır. Fitil-fitil fransızların, makronların burnundan gətirilir. Sümürgəçi kimi ad qazanmış, üçüncü dünya ölkələrini çapıb talayan Fransa imperializmi bu gün artıq diz çökməkdədir. Buna baxmayaraq şər işlərindən əl çəkmək istəmir. Afrikadan qovulan Fransa özünü, öz gücünü bu dəfə Cənubi Qafqazda sınamaq istəyir. Gələcəyi varsa, görəcəyi də var. Afrikadakı kimi...

*V.VƏLİYEV*

# “Türkiyə-Pakistan-Azərbaycan hər zaman çiyin-çiyinə dayanan ölkələr olub”

*“Azərbaycan geostrateji anlamda böyük çəkiyə malik olan ölkədir. Üstəlik, Azərbaycanın müttəfiq olduğu ölkələr dünyada söz sahibi olan dövlətlər sırasındadır. Bu dönəm, önəmli hadisələrlə yaddaqalan oldu. Belə ki, Türkiyənin yenidən seçilmiş dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Bakıya səfərləri, verilən mesajlar, imzalanan sənədlər ölkələrimiz arasında strateji tərəfdaşlığın bariz nümunəsidir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Ülviyyə Həmzəyeva deyib.*



Onun sözlərinə görə, Pakistan işğal dövründə Azərbaycana hər zaman dəstək verib və 44 günlük Vətən müharibəsi zamanı öz köməyini əsirgəməyib: “Türkiyə, Pakistan və Azərbaycan hər zaman çiyin-çiyinə dayanan ölkələr olubdur. Bakının müxtəlif yerlərində hər iki qardaş ölkələrin bayraqlarını görə bilərik. Bu, İkinci Qarabağ müharibəsi dövründə asılmış bayraqlardır. İki il yarım bundan öncə müharibə başa çatsa da, Azərbaycan Türkiyə və Pakistan bayraqlarını hələ də dalğalanır. Bu, xalqımızın qardaş ölkələrə olan münasibətidir və biz eyni münasibəti Türkiyədən, həmçinin Pakistan xalqından da görürük”.

Deputat sözlərinə belə davam edib: “Azərbaycan, Türkiyə və Pakistan - bu üç dövlətin əməkdaşlığı həm ikitərəfli, həm üçtərəfli, həm də çoxtərəfli formatda inamla inkişaf edir və ciddi siyasi dəstəkdir. Eyni zamanda, artıq Böyük Qayıdış planına uyğun olaraq, Laçına ikinci köç baş vermişdir. Buz öz torpaqlarımıza qayıdırıq və bizi heç bir qüvvə durdura bilməz. Bütün bu önəmli hadisələrin fonunda Ermənistan silahlı qüvvələri Laçında dövlət sərhədindən buraxılış məntəqəsinə qarşı hərbi təxribat törətməsi, Ermənistanın və onun havadarlarının növbəti hərbi və siyasi təxribatı idi və layiqincə cavabı verildi.

Ermənistanın bu hərəkətləri, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı təcavüz aktıdır. Bu təxribat onu göstərir ki, Ermənistan öz sözünün ağası olmadığı kimi, öz silahlı qüvvələrini də idarə edə bilmir və ya hələ də revanşist qüvvələrin təsiri altında nəyəsə ümid edir.

Lakin unutmasın ki, Azərbaycanın dəmir yumruğu hər an ona zərbə vurmaq üçün bütün gücü ilə fəaliyyətdədir! Azərbaycan öz torpaqlarını qaytarmaq fikrindən vaz keçmədiyi kimi, regionda sülh gətirən planlarından da dönməyəcək!”.

**Ayşən Vəli**

---

# Süd anaları niyə qeyb oldu?





Bəzən dünyaya uşaq gətirən qadının çeşidli səbəblərdən südü olmaya bilir, 30-40 il əvvəl bu kimi hallarda südü olmayan analar uşaqlarına süd anası tapırdılar, bu körpənin süni qida ilə yox, təbii qida ilə böyüməsinə, eyni zamanda, ailə büdcəsinə xidmət edirdi. Südü olmayan ananın (çox nadir rastlanan vəziyyət idi) övladına qonşuluqda, yaxınlıqda yaşayan başqa körpəli qadın süd verirdi. Doğrudur, onda da süni uşaq qidaları vardı, xatırlayanlar olar, məşhur “Nan”, “Malış” markaları vardı. Amma analar süni qidanı mümkün olduğu qədər uşaqlara vermirdilər, uşaqlar ya süd anası, ya da keçi südü ilə qidalanırdı.

Maraqlıdır, indi həkimlər süd anası alternativini niyə məsləhət görmür analara? İki səbəb var. 1. Süd anasının hər hansı bir xəstəlik daşıyıcısı olması ehtimalı. 2. Süni qidaların satışından əldə edilən gəlirdən məhrum ola bilmək ehtimalı. Birincinin çarəsi var, süd anasının müayinə və analiz nəticələrini görmək və əmin olmaq olar. Amma ikinci ehtimal qalıb həkimlərin insafına.

Birinci övladım rəhmətə getdi, orqanizm o qədər süd istehsal edirdi ki, heç bir vasitə ilə kəsmək olmurdu. İlk doğum təcrübəsi və mənim təcrübəsizliyim - südü dayandırmaq mümkün olmurdu. Keçirdiyim şok, övladımın itkisi də orqanizmi küsdürmürdü. Biz atlı olduq, ətraf piyada, südəmər uşaq ya olmadı, ya da uşağın anası süni qidanı verməyə razı oldu, amma dünyanın ən qiymətli nemətini övladına qıymadı. Poliklinikaya dəfələrlə zəng elədim, getdim, analizdən keçdim, südümün təmiz, mənim tam sağlam olduğumu təsdiqləyən nəticələri göstərdim. Sağlam olduğumu bildilər, südü olmayan analarla əlaqələndirsinlər istədim, etmədilər. Ya həkimlər istəmədi, ya da analar – dəqiq bilmirəm. Mən o südü aylarla kəsməyə çalışdım, ağlaya-ağlaya, heyfslənəheyflənə.

İkinci övladım doğulanda qoca bir tibb bacısı vardı doğum evində, hər gün əlində balaca şüşə palataları gəzirdi, südü bol analardan qan qrupunu dəqiqləşdirib süd alırdı süddən məhrum qalan uşaqlar üçün. O südü bizdən istəyəndə o qadının simasındakı məhəbbəti, mərhəməti, sevinci və sevgini görəydiniz kaş! Ən çox keysər yolu ilə doğulan uşaqlara verirdi bizdən aldığı südü. Çünki keysər yolu ilə ana olan qadınlarda orqanizm süd istehsalına gec başlayırdı, ya da heç olmurdu. Qoca tibb bacısı uşaqları “ilk peyvənd” adlanan o sehrli iksirdən məhrum olmağa qoymurdu, anaların südü gələnədək süni qida verməkdən qoruyurdu. Bir dəfə bizim palatada süd üçün gözləyəndə baş həkim gördü onu, “yenə balalarına süd axtarırsan, Sara xala?” deyə gülümsədi.

Bir dəfə bu barədə bir araşdırma üçün analar arasında sorğu edirdim bir qrupda. Rəy yazan 60-70 anadan əksəriyyəti süd anasına narazı idi. Ən çox yazılan cavablar da belə idi: ”Mən qısqanırınam uşağımı, başqasının südünü əmən görsəm dəli olaram”, ”hardan bilim o ana xəstə deyil, uşağıma xəstəlik keçər”, ”ölərəm amma qoymaram, “smes” nəyə yetmir?”, ”bəlkə o süd verən qadın pozğundur, canidir, mənim uşağıma niyə eləsinin genləri keçməlidir ki?!” Hamısının cavaı var əlbəttə, süd anası axtaranda onun haqqında maraqlanmaq, sağlamlığını təsdiq edən analizlər etdirmək. Amma onlar bunu etinasızlıqla qarşılayırlar, axı mənşəyini bilmədiyimiz süni uşaq qidalarını böyük həvəslə uşağına verən analar üçün yazdıqları sadəcə bəhanələrdən ibarət idi.

Bir ananın yazdığı isə məni çox düşündürmüşdü: ”Baldızımla eyni vaxtda doğmuşduq, südüm olmadı, nə qədər yalvardım ki, mənim oğlumu da əmzir gündə bir dəfə, heç olmasa ana südünün az da olsa faydasını görsün, amma əmzirmədi. Südünü sağıb ayaqyoluna tökürdü, amma mənə deyirdi öz uşağıma güclə çatır”.

Süd anası öz uşağını uğurla əmizdirən sağlam qadın ola bilər, siz onun hamiləlik və doğum sonrası müayinələrinin nəticələrini görə, sağlamlığına və xəstəlik daşıyıcısı olmadığına əmin ola bilərsiniz. Əgər hələ narahatlığınız varsa süd anasını müəyyən infeksiyalara qarşı analizlərdən keçirə bilərsiniz - C və B hepatitləri, QİCS və s. İstəyən bir yolunu tapar, övladını bu möcüzəli qidadan məhrum etməz.

Yeni doğulmuş uşaqların yarıdan az hissəsi həyatın ilk saatı ərzində ana südü ilə qidalanmır, bu da onları xəstəliklər və ölüm qarşısında daha aciz edir. Körpələrin yalnız 44 faizi həyatın ilk altı ayı ərzində sırf ana südü ilə qidalanır. Bu, Ümumdünya Səhiyyə Assambleyasının 2025-ci ilə qədər qarşıya qoyduğu 50 faiz hədəfindən azdır. Ana südü ilə qidalandırma faizinin ölkəmizdə 50 ətrafında olduğu iddia edilir, lakin müşahidə və təcrübələr göstərir ki, real rəqəm daha azdır, amma 10 il əvvəlki 23-25 faizlik göstəricilərə nisbətdə ”buna da şükür” deyə bilərik. Əgər bu problem sizə çox xırda görünürsə, deməli ki, süni uşaq qidalarının təhlükəsi barədə hələ çox məlumatlı deyilsiniz.

Eqonuzu, lazımsız qısqanclığınızı bir kənara qoyun, südünüz olmaya bilər (niyə olmaması da bir ayrı yazının mövzusudur ki, bu barədə çox yazmışam), mümkün olduğu qədər körpənizə süd anası tapın, indi daş dövrü deyil ki, yoxlamadan, analiz etmədən südü körpəyə verəsən. Süd anası da, südü də lazımı analizlərdən keçirmək, sağlamlığına arxayın olmaq olar. Üstəlik, bəzi ”həkimlərin” iddia etdiyi kimi ana südü xəstə ola bilməz, uşağa zərər verə bilməz. O dünyanın ən təmiz qidasıdır və tərkibində zərərli heç nə yoxdur. Təbii ki, qadının zərərli vərdişləri yoxdursa. O ki qaldı sizi süd anasının südü ilə körpənizə genetik informasiyalarının ötürməsinə, buna görə narahat olmayın. Əmin olun ki, yad ananın südündə süni uşaq qidalarında olduğu kimi nə xərçəngə səbəb olan furan və mikotoksinlər, nə anemiyaya səbəb olan perklorat, nə nikotin, nə də qurğuşun yoxdur...

**Lalə Mehralı**

PROBLEM

---



Lalə Mehralı

# Bəxti "gecə" qızlar

Gecə, zülmət qaranlıq deməkdir Leyla. Həm də qara saçlı gözəl.

Qaranlıq taleli, gecə kimi zülmət bəxti olan Leyla...

17 yaşında tələbə olan, 18 yaşında ərə verilən, 19 yaşında ana, 20 yaşında şəkil olan Leyla...

Bakı Dövlət Universitetinin nümunəvi tələbəsi, akademik göstəriciləri yüksək, gələcəyin parlaq biologiya müəllimi Leyla...

8 aylıq mələyini də özü ilə torpağa aparan Leyla...

Ölüm səbəbini oxuyanda az qaldı havalanım...

Telefona cavab vermədiyi üçün əsəbləşib arvadını qətl edən sadist ərin qurbanı Leyla...

Gözü dönmüş, hirsində boğulmuş ər arvadı ilə birlikdə 8 aylıq körpə qızını da bıçaqlayıb öldürüb. Biri həyat yoldaşın, biri canından parça. Öldürən uşaq da deyil, 30 yaşlı ağlı, dərrakəsi olan kişi. Kənardan sağlam təsiri bağışlayan nə qədər xəstə ruhlu insan var içimizdə, fərqində deyilik. Yol yeriyəndə çiyninə toxunduğunuz, metroda ayağını basdığınız insanlar da onlardan ola bilər, əmin deyilik axı.

Bu insanların ən əhəmiyyətli xüsusiyyəti çox qara qəlbli və şübhəçi olmalarıdır. Həyat yoldaşlarının hər addımını izləyən, telefonuna casus proqram yükləyən, “onu geyinmə, bunu geyinmə, ora getmə, niyə evə gec gətdin, yenə harda idin, niyə o kişiyə baxdın?” düşüncəsində olan insanları deyirəm. Onlarla ömür keçməz, ömrünü yeyirlər çünki. Xəstəlik səviyyəsinə çatan qısqanclıqları həyatı ailəsinə zindan edir. Leylanın ölümünə səbəb olan qısqanclıq bu günədək neçə qadının həyatını yarıda kəsib?

Xatırlayarsınız, bir neçə il öncə də birisi arvadını qucağındakı körpəsi ilə birlikdə bıcaqlayıb öldürmüşdü. Kişi nə qədər qansız olar ki əl boyda körpəyə, köməksiz qadına qarşı bu vəhşiliyi törədər? Tək bu hadisədirmi? Əlbəttə yox.

Biz nələr gördük Leylaya qədər...

Murdar, cani, qansız, faşist, sadist, kişilər gördük, iki gün sonra doğacaq 9 aylıq hamilə qadını 10 aylıq körpəsinin gözü önündə zorlayan, dəfələrlə təcavüzdən sonra həm qadını, həm qarnındakı, həm də yanındakı körpəni paya ilə döyə-döyə öldürən.

Biz Sevinci də unutmamışıq – telefonunun ekranı qırıldığına görə ərindən gələn zəngə cavab verə bilməyən, bunun üçün vəhşicəsinə qətl edilən Sevinci. Biz Ayşəni də unutmamışıq, nənə himayəsində yetim böyüyən, uğurlu biznes qurub barını görə bilməyən, əri tərəfindən qəddarcasına öldürülən Ayşə.

Xanımı da xatırlayırıq biz. Polis ərinin 15 güllə ilə azyaşlı övladlarının gözü önündə qanına qəltan etdiyi Xanım. Laləni də, qızı Qumrunu da unutmamışıq biz. Yatdığı yerdə vəhşiliklə əri tərəifindən bıçaqlanaraq öldürülən ana-balanı. Ərinin dəmir boru ilə döyə döyə öldürdüyü hamilə Səidəni, ərinin dənizdə boğub öldürdüyü hamilə Şahanəni necə, unuda bilmişikmi?

Lalələr, şahanələr, səidələr, ayşələr çoxdur, saatlarla yazmağa, danşmağa sığışdıra bilməyəcəyimiz qədər çox. Ümumiləşdirib hamısını Leylanın timsalında yazdım. Leyla kimi ömrü yarıda qırılan, arzuları, ümidləri, gələcəyi canilıklə yarımçıq qoyulan qadınlar çoxdur. Dünən də var idilər, bu gün də var, sabah da olacaqlar. Onları qətl edən ərləri 10-15 illik cəza alıb azadlığa çıxacaqlarsa hələ uzun illər olacaq bəxti zülmət leylalar.

# Heydər Əliyev-100

# Zəfərə gedən yol Heydər Əliyevin qüdrətli ordu quruculuğundan başlayır





***Ümummilli lider, dünya səviyyəli əfsanəvi siyasətçi Heydər Əliyevin xalqımız və tariximiz qarşısında çox böyük, əvəzsiz xidmətləri vardır. Tarixin çox da uzaq olmayan yaddaşına-1991-ci ilin oktyabrına diqqət yetirsək görərik ki, XX əsrin sonlarında yenidən müstəqillik əldə edən Azərbaycan dövləti qısa zaman ərzində onu itirmək təhlükəsi ilə üzləşmişdi. Ölkədə hakimiyyət böhranı, qarşıdurma, orduda fərarilik, hərc-mərclik, anarxiya, xaos son həddə çatmışdı.***

İnsanların ümidsizliyi, sabaha olan inamının itməsi, vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurma nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı belə sual altına almışdı. Məhz buna görədir ki, müasir tariximizin yaddaşına 1991-1993-cü illər hərc-mərclik, anarxiya, özbaşınalıq dövrü kimi həkk olunub.

Təbii ki, bütün bunlar səriştəsiz, qeyri-peşəkar, həmin dövrdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, dar düşüncəli, hadisələrə siyasi qiymət vermək iqtidarında olmayan,gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan xain şəxslərin rəhbərlik etməsinə görə baş verirdi.Ölkədə mövcud problemlərin aradan qaldırılmasına nail ola bilməyən, səriştəsizliyi üzündən vəziyyətin daha da kəskinləşməsinə səbəb olan iqtidara qarşı xalqın inamı getdikcə itirdi.

O dövrün mövcud durumunu olduğu kimi şərh edən Ümummilli lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: “Demək olar ki, xilas yolu görünmürdü. Ölkə böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan bir ölkənin tam müstəqilolması başqadövlətləri, bəzi dairələri qane etmirdi.Nankor Ermənistanın Azərbaycana qarşı təcavüzü və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə olan qarşıdurma, hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən xalq özü saldı”.

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan torpaqlarının davamlı işğalı, gərginləşən siyasi vəziyyət, əhalinin sosial durumunun gündən-günə pisləşməsi ölkəni bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir liderə ehtiyac olduğunu gündəmə gətirirdi. Artıq vəziyyət o həddə çatmışdı ki, siyasi əqidəsindən asılı olmayaraq ölkənin bütün aparıcı qüvvələri müstəqilliyini yenicə bərpa etmiş bir ölkənin düşdüyü ağır və dözülməz vəziyyətdən yalnız və yalnız böyük siyasətçi Heydər Əliyevin çıxarda biləcəyini etiraf edirdi. Ona görə də xalq təxirəsalmadan Heydər Əliyevin ətrafında sıx birləşməyə qərar verdi.

1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı və tez bir zamanda ölkəmizi yaxınlaşmaqda olan daha ağır, daha qorxulu müsibətlərdən xilas etdi.Beləliklə, də sözün həqiqi mənasında, müstəqil Azərbaycan dövlətinin taleyində bir nicat, bir dönüş mərhələsi başlanıldı, böyük qurtuluşa doğru mühüm addımlar atıldı.

Dünya liderlərinin böyük dəyər verdiyi bu müdrik insan fəaliyyətə başladığı ilk andan iş proqramını xalqa açıqlayaraq bildirdi ki, mən Azərbaycanı qüdrətli, güclü, nüfuzlu, demokratik dövlət kimi görmək istəyirəm və atdığım bütün addımlar bu istiqamətə yönələcəkdir. Buna görə dəiyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçilən Ulu Öndərhədə və təzyiqlərəbaxmayaraq, xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürərək bildirdi ki,“Bundan sonra həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən xilasına həsr olunacaqdır”.

Ümummilli lider bütün problemlərin həll olunması üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayaraq, “Hər bir istənilən müsbət nəticə ölkədə sabitliklə tənzimlənir. Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz”, deyirdi.

Bütün sahələrdə kifayət qədərproblemlərin mövcudluğuna baxmayaraq, Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı və planlı iqtisadi inkişafın təməlini qoydu. Bununla da ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Qısa zaman ərzində Azərbaycan dövləti dahi siyasətçi Heydər Əliyevin yorulmaz fəaliyyəti, müdrik uzaqgörənliyi nəticəsində gələcəyə inamla baxan, bütün çətinlikləri dəf etmək iqtidarında olan yenilməz bir dövlətə çevrilməyə başladı.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin iqtisadi gücünün möhkəmlənməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında həlledici amil oldu.

Bu gün milli qurtuluş ideologiyasının uğurlu nəticəsi müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir və dünyada Azərbaycanın nüfuzu daha da artır. Beləliklə, bu mühüm, əlamətdar tarixi gün xalqımızın yaddaşına Milli Qurtuluş Günü kimi həkk oldu və 1997-ci il 15 iyundan etibarən parlamentin qərarı ilə rəsmi bayram kimi qeyd edilir.

Hadisələrin sonrakı gedişatı göstərdi ki, əgər müstəqilliyi qazanmaq vacib məsələdirsə, qarşıda duran digər əsas, önəmli məsələ də bütün vasitələrdən istifadə etməklə onu qoruyub saxlamaq, inkişaf etdirməkdir. Təbii ki, qarşıda duran bütün məsələlər Ümummilli liderin polad iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində reallığa çevrildi, həllini tapdı.

Ümummilli liderin qətiyyətli addımı xalqa sevinc bəxş edərək, ruh yüksəkliyi gətirdi, itmiş ümidimizi, inamımızı özümüzə qaytardı. Bu tarix həm də Azərbaycanın inamını özünə qaytarmaqla yanaşı, bu gününün, sabahının yoluna əbədi məşəl saldı. 1993-cü ilin yayında Gəncə və Lənkəranda baş vermiş hadisələrin, 1994 və 1995-ci illərdə dövlət çevrilişinə göstərilən cəhdlərin qarşısının alınması Heydər Əliyevin böyük siyasət xadimi olduğunu göstərməklə bərabər, respublikada ictimai-siyasi sabitliyin bərqərar olmasına, cəmiyyətin vahid məqsəd ətrafında daha çox səfərbər edilməsinə, ölkənin müdafiə qüdrətinin möhkəmlənməsinə şərait yaratdı.



*Adilə Abasova Ziyat qızı,*
*2-ci dərəcəli dövlət müşaviri,*
*YAP Veteranlar Şurasının*
*üzvü, professor*



Heydər Əliyev əməli fəaliyyəti ilə bir daha sübut etdi ki, hərbi quruculuq kimi ümumxalq əhəmiyyətli bir məsələnin həlli də, ilk növbədə, ümumxalq yekdilliyindən və ümumxalq həmrəyliyindən asılıdır.

Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Bütün maneələrə baxmayaraq, ən qısa müddətdə ölkədə ictimai-siyasi sabitlik bərpa olundu. Azərbaycanda sabitlik, inkişaf bərqərar olduqca müəyyən qüvvələr- həm xaricdən, həm də daxildən, hər vasitə ilə Heydər Əliyevin uğurlarını qısqanclıqla qarşılayaraq gedişata ciddi-cəhdlə mane olmağa səy göstərdilər. Lakin onların bu istəkləri sadəcə arzu olaraq ürəklərində qaldı...

Məhz belə bir mürəkkəb siyasi şəraitdə Heydər Əliyevin böyük potensialı Azərbaycanın müstəqilliyinin qarantına çevrildi. Ümummilli liderin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu, xalqımız Azərbaycan və azərbaycançılıq ideyaları ətrafında sıx birləşdi.

Müstəqil Azərbaycan dövlətinin qarşısında duran problemlər sistemli şəkildə həll olundu, ölkədə əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş yarandı.

Dahi siyasətçi Heydər Əliyevin dərin zəkası və qətiyyəti sayəsində Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı.Fitri istedad sahibi olan bu insan ilk növbədə Azərbaycan dövlətinin milli mənafeyinin qorunması naminə Milli Ordunun formalaşdırılmasına, nizamlı silahlı qüvvələrin yaradılmasına, torpaqların müdafiəsi ilə bağlı mühüm addımların atılmasına, dünya arenasında Azərbaycanın haqq səsini ucaltmaq, öz sözünü demək üçün mühüm əlaqələrin yaradılmasına, inkişaf etdirilməsinə çalışdı və buna da qısa zamanda nail oldu.

Beləliklə,12 may 1994-cü ildə atəşkəs əldə edilməsi ölkədə sabitlik yaranmasına, o cümlədən ölkəmizin dünya birliyinə inteqrasiyasına yol açdı. Yaranmış sabitlik regionda beynəlxalq əhəmiyyətli boyük enerji və infrastruktur layihələrini reallaşdırmağı da mümkün etdi. Azərbaycan dövləti öz iqtisadi potensialından səmərəli istifadə edərək dünya bazarına daxil olmağa şərait yaradan beynəlxalq müqavilələr, razılaşmalar və s. əldə etdi. Ölkə daxilində yaranmış nisbi sabitlikdən, həmçinin beynəlxalq aləmdə Azərbaycana münasibətdə artan inam və maraqdan istifadə edərək 1994-cü ilin sentyabrında “Əsrin müqaviləsi”nin imzalanması və onun gerçəkləşdirilməsi də məhz Ulu Öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanan və müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasının əsasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq nəticəsidir. Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi.

Həmin anı Prezident İlham Əliyev belə xatırlayır: “Biz xarici şirkətlərə deyirdik: siz ayrı-ayrı şirkətlərin marağını müdafiə edirsiniz. Biz isə ölkənin və Azərbaycan xalqının maraqlarını müdafiə edirik. Əgər siz səhvə yol versəniz, bu sizin şirkətin yalnız bir layihəsində öz əksini tapacaq, əgər biz səhv etsək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə ciddi xələl gətirəcəkdir”. Bütün çətinliklərə baxmayaraq, müqavilənin Azərbaycanın xeyrinə hazırlanmasında Ulu Öndərin böyük rolu oldu. Müqavilə təkcə ölkəmizin və şirkətlərimizin artan maliyyə potensialını əks etdirmədi, eyni zamanda xarici tərəfdaşların Azərbaycan iqtisadiyyatını inamını, tərəfdaşlığını nümayiş etdirdi.

Məhz Ümummilli liderin uzaqgörən siyasəti nəticəsində 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya qəbul olundu. Ulu Öndər bu barədə danışarkən deyirdi ki, “Biz elə bir layihə hazırlamalı və nəhayət elə bir Konstitusiya qəbul etməliyik ki, o müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun”.

Beləliklə, ölkədə daha genişmiqyaslı islahatlar aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına başlanıldı. Ulu Öndər Heydər Əliyevin göstərişi ilə Azərbaycanın milli mənafelərini qorumağa qadir olan nizamlı silahlı qüvvələrin yaradılması ön plana çəkildi və torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atılmağa başlandı. Azərbaycan Ordusunu müasir müstəqil dövlətimizin memarı və qurucusu olan Ulu Öndər Heydər Əliyev formalaşdırmışdır. Qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik olan Azərbaycan Silahlı Qüvvələri bu gün NATO standartlarına cavab verən səviyyədədir. Vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu Ümummilli lider Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Azərbaycan beynəlxalq aləmdə güclü iqtisadiyyata malik bir ölkə kimi tanınmaqla yanaşı, həm də NATO standartlarına uyğunlaşmış modern ordusuyla da diqqəti cəlb edir.

Heydər Əliyev Azərbaycan Ordusunun təşkilatlanmasını, böyük qüvvəyə çevrilməsini məmnunluqla qeyd edirdi. “1993-cü ilin sonlarından başlayaraq həyata keçirilmiş xüsusi tədbirlər nəticəsində milli ordu quruculuğu keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, qısa müddətdə vahid komandanlığa tabe olan nizamlı ordu formalaşdırıldı. Hazırda Azərbaycanın Silahlı Qüvvələri müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordudur. Milli Ordumuz müstəqil dövlətimizin ən böyük dayağı, xalqımızın təhlükəsizliyinin və ölkəmizin ərazi bütövlüyünün təminatçısıdır”.

Azərbaycan Ordusu qısa müddət ərzində böyük inkişaf yolu keçdi və bölgənin ən güclü qüvvəsinə çevrildi. Azərbaycan Ordusunun güclənməsinin və uğurlu şəkildə təşkilatlanmasının ən başlıca səbəbi, ordu quruculuğuna Heydər Əliyevin rəhbərlik etməsi idi. Azərbaycanın müstəqilliyinə, xalqının milli maraqlarına dərindən bağlı olan Ulu Öndər Heydər Əliyev müstəsna dövlətçilik təcrübəsi, təşkilatçılıq bacarığı, yorulmaz işgüzarlığı ilə ordu quruculuğuna xüsusi bir önəm verdi, bu prosesin siyasətini çox böyük incəlik və dəqiqliklə müəyyənləşdirdi, onun icrasında məqsədyönlü bir çeviklik nümayiş etdirdi.

Azərbaycanın müstəqil dövlət quruculuğunun bütün sahələrində, o cümlədən hərbi təhlükəsizliyinin təmin edilməsi sahəsində gördüyü əzəmətli işlər Heydər Əliyevin mahir siyasətçi, böyük təşkilatçı olduğunu bir daha sübut edir. Onun müstəqil Azərbaycanın dövlət rəhbəri kimi fəaliyyətinin elə ilk günləri göstərdi ki, respublikanın dövlət müstəqilliyini, ərazi bütövlüyünü etibarlı şəkildə qorumaq, ölkənin bütün potensialını məqsədyönlü şəkildə bu istiqamətə yönəltmək, hərbi təhlükəsizliyinin təmin edilməsinə hesablanmış hərbi siyasəti səmərəli şəkildə həyata keçirmək üçün əsas şərtlərdən biri daxili ictimai-siyasi sabitliyin təmin edilməsi, xalqın bütün təbəqələrinin ümumdövlət mənafelərini əks etdirən ümummilli məqsədlər ətrafında birləşməsinə nail olunmasıdır. Heydər Əliyevin Azərbaycanın dövlət rəhbəri kimi fəaliyyətinin xarakterik tərəflərindən biri bu idi ki, o, daxili hərbi-siyasi sabitliyin, vətəndaş həmrəyliyinin, xalqın birliyinin təmin edilməsinin əhəmiyyətini düzgün qiymətləndirdi və onların əldə edilməsinə də nail oldu. Elə bir xalq ola bilməz ki, ən azı onun böyük əksəriyyəti daxili ictimai-siyasi sabitliyin, əmin-amanlığın bərqərar olmasını istəməsin. Lakin ölkə daxilində bu sabitliyin təmin edilməsi, bununla da quruculuq işlərinin, o cümlədən ordu quruculuğunun həyata keçirilməsinə zəruri şərait yaradılması üçün əsaslandırılmış dövlət siyasəti lazımdır.

Atəşkəs dövründə ordu quruculuğunun uğurlu aparılması üçün Heydər Əliyev dövlətin strateji siyasətini müəyyənləşdirdi, milli zabit kadrlarının hazırlanması üçün mükəmməl bir hərbi təhsil sistemi formalaşdırdı, ordunun maddi-texniki bazasının təkmilləşdirilməsi daimi diqqət altına alındı.

Heydər Əliyevin respublikada daxili hərbi-siyasi sabitliyin təmin edilməsi sahəsindəki fəaliyyəti bu zərurətin əyani göstəricisi idi. Bu fəaliyyət göstərdi ki, ölkədə daxili hərbi-siyasi sabitliyin təmin edilməsi üçün dövlət rəhbərliyindən çox böyük əzmkarlıq, ardıcıllıq və təcrübə tələb edir və kifayət qədər mürəkkəb olan tarixi şəraitdə belə vəzifələrin uğurlu həllinə Heydər Əliyev kimi böyük dövlət xadimləri nail ola bilərlər.

Heydər Əliyev cəmiyyətin ictimai-siyasi sabitliyinin və yekdilliyinin təmin olunmasına xüsusi əhəmiyyət verirdi. Respublikanın rəhbəri kimi o, əsas fəaliyyətini də məhz bu sahədən başladı. Xalqın siyasi qütblərə parçalanmasını, dövlətin vətəndaşlarının birbirinə qarşı əks cəbhələrdə dayanmasını Heydər Əliyev erməni təcavüzünə qarşı mübarizədə ciddi maneə kimi qəbul edir, bu parçalanmanın, müxalifətçiliyin ifrat forma alması dayandırılmayınca güclü ordu yaratmağın və ölkənin etibarlı müdafiəsinin mümkünlüyünü də istisna edirdi.

Azərbaycan Ordusunun formalaşdırılması sahəsində Heydər Əliyevin tarixi fəaliyyətinin ilk addımları Naxçıvanda atıldı. Bu böyük dövlət xadiminin muxtar respublikadakı qısa fəaliyyəti bir daha göstərdi ki, məqsədyönlü, milli maraqları qoruyan siyasət yeridilməsi, xalqın milli maraqlar ətrafında birləşdirilməsi ən mürəkkəb vəzifələri belə həyata keçirməyə imkan verir. Heydər Əliyev parlaq zəkası və bənzərsiz təşkilatçılıq qabiliyyəti ilə həm Naxçıvanın erməni təcavüzündən müdafiəsini, həm də burada milli hərbi hissənin sağlam əsaslar üzərində formalaşmasını təmin etdi və bununla da respublikanın iqtidarında olan qüvvələrə də dövlətçilik nümunəsi göstərdi.

Ordu quruculuğunun səmərəliliyinə nail olunmasının başlıca şərtlərindən birini Heydər Əliyev xalqın qüvvəsinə arxalanmaqda, xalqla vəhdətdə görürdü. O, xalqın gücü qarşısında hər cür qüvvənin sönük olduğunu təsdiq edir və öz fəaliyyətinə də ən böyük dəstəyi xalqın etibarında və etimadında görürdü. Ölkə həyatının ən böyük problemlərinin həllində də Heydər Əliyev, məhz xalqın gücünə arxalanırdı və həyatının mürəkkəb anlarında da xalqı ayağa qaldırmağı və milli mənafelər ətrafında onu səfərbər etməyi bacarırdı.

Azərbaycanda ordu quruculuğunun yeni əsaslar üzərinə qoyulmasının və qısa müddət ərzində yeni ordunun formalaşdırılmasının başlıca şərtlərindən biri də məhz Heydər Əliyev tərəfindən bütün xalqın bu prosesə cəlb edilməsi idi. Ölkədə mövcud olan ən müxtəlif mürəkkəbliklər arasından Heydər Əliyevin müstəsna fəaliyyəti ilə respublikanın siyasi böhrandan çıxarılması adi baxışdan inanılması bir qədər çətin olan bir möcüzəyə oxşayırsa, ordunun böhrandan çıxarılması həmin möcüzənin təkrarı idi. Bu sahədə mövcud olan problemlər son dərəcə çoxşaxəli idi və müəyyən hallarda qeyri-adekvat tədbirlərin həyata keçirilməsi zərurəti də son dərəcə aktual idi. Lakin bu problemlər də həll edildi. Heydər Əliyev bu sahədə də bir möcüzə yaratdı, Azərbaycan Ordusunu məhv olmaqdan, dağılmaqdan xilas etdi, qısa müddət ərzində güclü və təşkilatlanmış bir ordu yaratdı, ordu quruculuğuna münasibətdə yeni bir baxış formalaşdırdı və Azərbaycan Ordusunu da Azərbaycanın müstəqilliyinin dəyərli reallıqlarından birinə çevirdi.

Nəticədə, xalqın mübarizlik, dönməzlik əzmi orduya dasiraət etdi, şəxsi heyətin mənəviəhval-ruhiyyəsi kifayət qədər sağlamlaşdırıldı, yeni-yeni ehtiyat hissələr təşkil edilərək cəbhəyə göndərildi, döyüşçülərin və onların ailələrinin sosial qayğı ilə əhatə edilməsində canlanma yarandı.

Bütünlükdə, Heydər Əliyev ordu quruculuğuna münasibətdə cəmiyyətdə yeni bir təfəkkür formalaşdırdı, insanlarda orduda xidmətə yeni bir münasibət yarandı, əvvəlki dövrlərdə orduya olan etimadsızlıq, aradan qaldırıldı, ordunun xalqın bir parçası olmasının real anlamı cəmiyyətdə bərqərar olundu. Heydər Əliyevin bu sahədəki misilsiz fəaliyyəti xalqda orduya inamı geri qaytardı, xalq da ordunu özünün bir parçası kimi qəbul etdi və orduya qayğı ümummilli dəyər aldı, ordu da vahid rəhbərlik altında birləşərək xalqın iradəsini əks etdirdi və erməni təcavüzünə qarşı mübarizəyə səfərbər oldu.

İstər səfərbərlik işindəki, istərsə də bütövlükdə ordu quruculuğundakı nöqsanların aradan qaldırılmasında kadrların tərbiyələndirilməsi, seçilməsi, yerləşdirilməsi Heydər Əliyevə görə böyük əhəmiyyət kəsb edən məsələlərdən biri idi. O, dəfələrlə hərbi hissələrə səfər etdi, hərbi hissələrin xidmət həyatı ilə yaxından tanış oldu, əsgər və zabitlərin qayğıları ilə maraqlandı. Heydər Əliyev peşəkarlıqla bərabər, mənəviyyat saflığını, əqidə bütövlüyünü, vəzifə borcuna sadiqliyi zabit kadrlarının başlıca keyfiyyətləri hesab edir və buna nail olunmasını da ordu quruculuğunun ümdə vəzifələrindən biri sayırdı. Məhz bu istiqamətdə görülən köklü, uğurlu işlərin nəticəsidir ki, bu gün Silahlı Qüvvələrimiz daha da modernləşdirilib, ən son hərbi texnologiyalar orduya cəlb edilib. Möhtəşəm hərbi paradlar da bunu təsdiq edir. Bu paradlar xalqımızın ümummilli lideri Heydər Əliyevin ideyalarına sədaqət və ehtiramının gözəl nümunəsidir.

Azərbaycan xalqının tarixinə qızıl rəqəmlərlə yazılmış 44 günlük Vətən müharibəsi, “Dəmir yumruq” əməliyyatı, 2-ci Qarabağ savaşının şanlı zəfərini bizə ata nəsihətlərini, tövsiyələrini layiqincə yerinə yetirən Prezident İlham Əliyev yaşatdı.

Göründüyü kimi haradan baxırsan bax, bütün sahələrdə qazanılan nailiyyətlərin əsasında Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Bu günün reallığından baxanda Azərbaycanın gələcəyi daha işıqlı və firavan görünür. Çünki müstəqil Azərbaycanın idarəçilik sükanı Ulu Öndər Heydər Əliyevin siyasi varisi Prezident İlham Əliyevin əlindədir.

*“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.*

# Heydər Əliyev ideyaları əbədiyaşardır!

## *Daşkəsəndə gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər*



2023-cü il iyunun 23-də YAP Daşkəsən rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Daşkəsən rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib, gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.



# Sülh danışıqları: açıq qalmış suallar



### Yaxud, ABŞ-ın və Fransanın aktivliyi Ermənistanın son ümid yeri olsa da...

Bu günlərdə məlum oldu ki, Ermənistan rəhbərliyi yenidən Azərbaycanın suveren ərazisinə müdaxilə məqsədli qərar qəbul edib. Daha doğrusu, Xankəndiyə maliyyə ayırmaqla Bakının səbrini tükəndirib. Məsələ həm də ondadır ki, İrəvan həmin qərarlarını elə-belə vermir, əksinə - çox yəqin ki, Ermənistan hakimiyyətinə məlum Qərb dairələri tərəfindən ayrıca sifariş verilib. Ümumiyyətlə, sülh danışıqları prosesində bu kimi məsələlərin üzə çıxması heç də Ermənistana yaxşı heç nə vəd etmir...

### Cənubi Qafqaz marağı öz qüvvəsindədir...

Politoloq Fərhad Məmmədov Ermənistanın sülh danışıqları və ona bağlı proseslərin uzadılması ilə əlaqəli analitik şərhlə çıxış edib. Özünün rusdilli ”mneniyafm” teleqram kanalında fikirlərini şərh edən politoloqa görə, son proseslərdən sonra Qərbin qarışqa yuvası hərəkətlənib. Belə ki, ABŞ-ın dövlət katibliyi, Pentaqon rəhbərliyi və milli təhlükəsizlik müşavirliyi səviyyəsində Ermənistan-Azərbaycan münasibətlərinə aid prosesə daxil olublar. Yəni Cənubi Qafqaz marağı öz qüvvəsindədir...

Fransa da öz prezidenti səviyyəsində özünün “beş qəpiyini” ortaya qoyur. Yunanıstan isə ümumiyyətlə, ABŞ və Fransanın çağırışı olmadan bu məsələyə qatılıb. Bunun da səbəbi bəllidir - Türkiyə faktoru.

### Danışıqların ən kənar nöqtəsi

Bütün bunlarla yanaşı, müzakirə olunan gündəlik ayrı-ayrı bloklara (sülh sazişi, blokadadan çıxma, sərhəd, humanitar hissə) bölünmür, hər şey yeganə proses çərçivəsində danışılır. Belə bir situasiyanın səbəbi ondadır ki, bütün mövzular bir-biri ilə əlaqəlidir. Başqa tərəfdən isə bu mövzuların heç biri həll olunmayıb və cavabını tapmayıb. Danışıqların ən kənar nöqtəsi – ölkələrin ərazi bütövlüyü ilə bağlıdır. Lakin bu mövzu Azərbaycana aid olanda ABŞ və ATƏT-in Minsk qrupunun həmsədrləri təcavüzkar ölkəyə dəstək göstəriblər. Lakin həmin mövzu Ermənistana aid olanda hər şey dəyişildi və üzə çıxmağa başladı, hər kəs narahat oldu... Biz hər dəfə bunu onların üzlərinə vurmalıyıq.

### Bu, onların maksimal danışıqlar mövqeləridir ki, zaman-zaman əriməyə başlayacaq...

ABŞ-ın və Fransanın aktivliyi Ermənistanın son ümid yeridir və bundan sonra qərarlar qəbul olunmalıdır – məhz sülh danışıqları. Əgər ümumi götürsək, Ermənistan mövcud mərhələdə özünün himayədarları və havadarları ilə Qarabağdakı ermənilər üçün hər hansı “status” almağa (hətta ərazi də yox) cəhd edir, sülh danışıqlarında Qarabağın (separatçıların) heç olmasa xatırlanmasını, eləcə də Qərbin təmsilçiliyini istəyir. Bu, onların maksimal danışıqlar mövqeləridir ki, zaman-zaman əriməyə başlayacaq...



Azərbaycanın isə mövqeyi prinsipialdır ki, Qarabağ onun daxili işidir, sülh danışıqları isə dövlətlərarası gündəmi əks etdirir. Ermənistanla danışıqların mövcud mərhələsi bilavasitə sülh gündəmindən ibarətdir ki, bu haqda çox danışılır, lakin bununla yanaş, digər mövzulara da aydınlıq gətirilməlidir ki, onlar hələ də açıq qalıblar:

-Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən tamamilə çıxarılması;

-Ermənistandan gələn infrastruktur və təminat fəaliyyətlərinin reqlamentasiyası, yaxud onların bağlanması;

- Qarabağ erməniləri üzərində qanunsuz hakimiyyət quran Ermənistanın oradakı xuntaya ayırdığı hərbi maliyyədən imtinası...

Mövcud mövzular situasiyanın dəyişilməsi nöqteyi-nəzərindən əhəmiyyətlidir. Belə ki, bizlər bir sıra sənədlərin imzalanmasının şahidləri olmuşuq ki, sonradan onlara əməl olunmayıb.

Nəticədə həm də belə qənaətə gəlmək olar: İrəvan artıq Bakının səbir kasasını doldurub və istər Qərb dairələri olsun, istərsə də Ermənistanın digər havadarları olsun - onların heç bir cəhdləri Azərbaycanın suveren ərazilərində keçməyəcək. Əksinə, Azərbaycan bütün müvafiq addımlarını ataraq suveren ərazilərinin təhlükəsizliyini əlində olan bütün imkanları ilə tətbiq edəcək.

***Afət Tahirqızı***



# Fit çalmağın yanında ucadan danışmaq nədir ki?..

**Mətanət Məmmədova**

***Azərbaycan mentalitetində ucadan danışmaq qəbahətdir. Fit çalmaq isə qəbahətdən qəbahət, həm də böyük saygısızlıqdır. Həmişə görmüşük ki, cəmiyyətimiz bunları qəbul etmir, ucadan danışan adamlar tənqid edilir, haradasa fit çalanlar isə ümumiyyətlə bağışlanmır. Belə isə bir neçə ay əvvəl kənddən gələnləri atəşli tənqidə tutub “Onlar hətta restoranda çox ucadan danışırlar. Rayondan gələnlər şəhərə adaptasiya ola bilmirlər. Bu, bizim günahımızdır. Biz susuruq, onlara demirik ki, uşaqlar, restoranda belə danışmaq olmaz” deyən Əməkdar artist Bəhram Bağırzadənin o yaşda toy mərasimində fit çalması nə onun imicinə, nə də yaşına əsla uyğun deyil. Sözün həqiqi mənasında, bu hərəkəti ondan əsla gözləməzdik.***

Bir qədər əvvəl sən gəl yuxarıda dediyim kimi, kənddən gələnlərə yuxarıdan aşağı bax, onları ucadan danışmaqda ittiham et, sonra da toyda özün fit çal. Maraqlıdır, deyilmi?.

Birincisi, kənddən gələnlər, daha doğrusu kənddə böyüyüb tərbiyə alanlar ümumiyyətlə, ucadan danışmırlar. Kəndlərimizdə iffət, utanmaq hissləri hələ də yaşamaqdadır. Həm də orada valideynlər o qədər astadan danışırlar ki, istər-istəməz övladları da buna riayət edirlər.

İkincisi, bu məsələdə nə kənddə, nə də şəhərdə böyüyən bütün gəncləri ittiham etmək olmaz. Çünki kəndin də yaxşısı var, şəhərin də. Şəhərin də pisi var, kəndin də. Belə isə bu barədə yazdığım birinci yazıda da dediyim kimi, mövzuda “bəzi gənclər”, “bəzi insanlar” ifadələrini işlətmək daha da yerinə düşər.

Üçüncüsü, Bəhram bəy harada nə gəldi edə bilməz. Məsələn, bu yaxınlarda onun ən işlək yollardan birinin düz ortasında maşını saxlayıb kiminləsə söhbət etməsi də müşahidə olunmuşdu. Həm də nə az, nə çox, 15 dəqiqəyə yaxın. Bütün maşınlar da dayanıb onu gözləyirdilər. Bu, ciddi yol hərəkəti pozuntusu idi.

Qaldı Bəhram bəyin toy mərasimində fit çalmasına. Bu, əsla Azərbaycan mentalitetinə uyğun olmayan bir davranışdır. Elə buna görə də hər kəs bu hərəkətinə görə onu tənqid etdi, qınadı.

İndi Bəhram bəyə bir sualla müraciət etmək istəyərəm ki, sizcə fit çalmağın yanında ucadan danışmaqdan söhbət açmaq olar? Əgər bilsəydiniz ki, cəmi bir neçə ay sonra toyda belə ucadan fit çalıb bütün diqqətləri üzərinizə yönəldəcəksiniz, onda kənddən gələn gəncləri ucadan danışması məsələsindən bəhs edərdinizmi?

Məncə, əsla yox. Bilsəydiniz ki, özünüz bir neçə ay sonra ya ixtiyari, ya da qeyri-ixtiyari bu hərəkəti edəcəksiniz, gənclərin ucadan danışdığını görsəydinizsə də, əsla o söhbəti açıb-ağartmazdınız. Belə isə düşünüb danışmaq, bütün insanlara, eləcə də gənclərə hörmətlə yanaşmaq, onların bir neçəsinə görə hamısını ittiham etmək onlardan dəfələrlə yaşda böyük olan bizlərə yaraşmaz. “Bəzi” sözünü işlətmədən fikir söyləmək bütün zamanlarda, bütün məqamlarda qəbahətdir. Elə bütün zamanlarda və məqamlarda fit çalmaq ondan da böyük qəbahətdir. Hələ olasan 50-60 yaşlarında...

# Mənəviyyatın hərracı





***Son illərdə Azərbaycanın bölgədə yaratdığı reallıqlar dünyanın siyasət masasını daha aktual məsələlərlə zənginləşdirdi. 44 gün davam edən Vətən müharibəsində qüdrətli Azərbaycan qarşısında tab gətirməyərək məğlub olan, kapitulyasiya aktını imzalayan Ermənistanı dəstəkləyənlər arasında yaranan çəkişmələr, daim gündəmdə olan Cənubi Qafqazda söz sahibliyi naminə güclənən rəqabətlər artıq daha iyrənc metodlarla davam etdirilir. Diz çökən Ermənistanın daxilində yaranan gərginliklər, rəsmi İrəvanın vədə xilaf çıxmaq ənənəsini davam etdirməsi birbaşa olmasa da dolayısı ilə milli satqınların xəyanət planlarına da təsir edir. Çünki onları maliyyələşdirən dairələr baş verən hadisələrə, törədiləcək təxribatlara uyğun vəsait ayırır, kampaniyalar təşkil edirlər.***

Bəllidir ki, xarici ölkələrdə sığınacaq taparaq başqalarının süfrələrinin artıqlarını Vətənin halal nemətindən artıq tutanlar vicdanlarını çoxdan hərraca qoymuşlar. Azərbaycanda daxili sabitliyi pozmaq üçün havadarları tərəfindən maliyyələşdirilən, əmrə itaət edən antimilli qüvvələri nə Vətən təəssübü, nə də milli mənafe maraqlandırmır. Vaxtilə ermənilərə satdıqları torpaqların İkinci Qarabağ müharibəsində azad olunmasından belə utanıb xəcalət çəkməyənlər işğaldan azad edilən ərazilərdə aparılan bərpa-quruculuq işlərinə belə qara yaxırlar. Erməni ideologiyasına xidmət edənlərin son günlərdə Laçın sərhəd-buraxılış məntəqəsində baş verənlərə görə Azərbaycan tərəfi günahlandırmaları da təsadüfi deyil. Guya «hüquqları pozulan, humanitar dəstəkdən məhrum olan» ermənilər üçün göz yaşı axıdan bu məzhəbsizlər unudurlar ki, Azərbaycan vətəndaşları olsalar da rəsmi Bakının təklif etdiyi reinteqrasiyadan imtina edən Xankəndinin separatçıları 30 ildə «humanizmi» unudaraq azərbaycanlılara ağlagəlməz dəhşətlər yaşatmış, kütləvi qırğınlar törətmişlər. Vətən müharibəsindən sonra aşkarlanan kütləvi məzarlıqlarda nəşləri tapılan soydaşlarımız antimillilərin dəstəklədikləri erməni quldurlarının vəhşiliklərinin qurbanlarıdırlar.

Doğma yurdlarına qayıdan laçınlılarla görüşən Prezident İlham Əliyev torpaqlarımızı ermənilərə peşkəş edən, bu gün isə özlərini təmizə çıxarmaq üçün hay-küy salan AXC-Müsavat cütlüyünün xəyanətlərindən də söz açıb: «Laçının ermənilərə təhvil verilməsinin arxasında məkrli siyasi niyyətlər dayanmışdı. AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı. Hakimiyyəti istənilən yollarla ələ keçirmək üçün ən çirkin əməllərə də əl atdı, Şuşanı, Laçını demək olar ki, düşmənə təhvil verdi. Görün, bu tarixlərin - yəni, Laçının azad olunmasının və bu gün bizim burada keçirdiyimiz görüşün tarixlərinin də rəmzi mənası var. May ayında Laçın işğal altına düşdü, may ayında laçınlılar Laçına qayıtdılar. Düzdür, 31 ildən sonra, amma biz qayıtmışıq.»

Bu sözləri təkcə Laçın haqqında deyil, 30 il işğal altında qalan bütün ərazilərimiz haqqında söyləmək olar. Amma hələ də çamur bağlamış şüurlarında erməni sevgisini yaşadan milli xəyanətkarlar ölkəmizdə geniş miqyasda aparılan bərpa-quruculuq işlərindən qan qardaşları haylar kimi məyus olurlar. Ermənistanla Azərbaycan arasında xarici ölkələrdə aparılan danışıqlar zamanı dilənci kimi sığındıqları ölkələrdə ölkəmiz əleyhinə aksiyalar keçirən ermənilərin ön cərgəsində dayanan antimillilər «yan»lardan daha yüksək tonla qışqırırlar. Vətənpərvərlik duyğusundan məhrum olan Sevinc Osmanqızı, Qənimət Zahid, Emin Hüseynov, Tural Sadıqlı və digər vətənsizlərin ölkəmizlə bağlı yaydıqları şər –böhtan mənəviyyatsızlığın ən çirkin formasıdır.

Ermənistanın baş naziri Nikol Paşinyan hakimiyyətə gələndə «Osmanqızı TV»nin üzdəniraq aparıcısı Sevinc Osmanqızı «Kaşki, Paşinyan bizim başçımız olardı» sözləri ilə ermənipərəst mövqeyini ortaya qoymuşdu. O, sonrakı illərdə də bu istiqamətdə «fəaliyyətini» davam etdirərək məğlub olan Ermənistan üçün saçını yoldu. Qənimət Zahidin Azərbaycanın ünvanına yağdırdığı böhtanları heç kim unutmayıb. Antimilli həmkarı Sevincdən geridə qalmayan Qənimət əvvəllər təmsil olunduğu AXCP-də apardığı təxribatları indi daha geniş miqyasda davam etdirir. Azərbaycan xalqının müstəqilliyinin əbədiyyət günü olan 1993-cü il 15 iyun tarixində baş verən hadisələri ermənisayaq «təhlil» edən, özünü siyasətçi kimi qələmə verən, Müsavat Partiyasının üzvü Tofiq Yaqublu yenə də suyu bulandırmaqda davam edir. Erməni əsilli arvadı Raisa Qaykovna ilə haylara yas saxlayan Beydulla Manafov Amerikada oturub Azərbaycanda baş verən hadisələri daşnak ideologiyası ilə araşdırır. Milli xəyanətkarların Azərbaycan əleyhinə qarayaxma kampaniyalarını cidd-cəhdlə davam etdirmələrinin arxasında xarici ölkələrin xüsusi xidmət orqanlarının izləri görünür. Avropa və ABŞ-da «siyasi mühacir» kimi dilənci günü keçirən bu əsli-nəcabəti bilinməyənlər Vətən təəssübünü çoxdan itiriblər. Erməni lobbisi ilə əməkdaşlıqlarından maliyyə mənbəyi kimi istifadə edən bu satqınların qazanclarına haram qatıldığı üçün bərəkətləri də yoxdur. «Osmanqızı TV»nin baş qəhrəmanı kimi Azərbaycana qarşı böhtanları ilə ermənilərə xidmət edən Beydulla Manafov kimilərin sosial şəbəkələrdəki anti-Azərbaycan çıxışları onların məkrli, xəyanətkar xislətlərinə verilən tula payıdır.

AXCP sədri Əli Kərimlinin təlimatlarına uyğun təxribatlarını davam etdirən tofiqlər, beydullalar, sevinclər, xədicələr, qənimətlər nə qədər yalanlar, böhtanlar yağdırsalar da dünya ictimaiyyətinin dəstəklədiyi , heyran qaldıqları Azərbaycan həqiqətlərinə kölgə sala bilməyəcəklər. Çünki bu tör –töküntülərin son mənzilləri zibilliklərdir. Vətən torpağının qəbul etmədikləri bu mənəviyyatsızların özgə qapılarında keçirdikləri həyatlarında qazandıqları xalqın nifrəti olacaq.

***Xuraman İsmayılqızı***

# Optik Rabitə Xətti layihəsi çərçivəsində müqavilə imzalayıb



***"AzerTelecom" və "Kazakhtelecom" arasında Azərbaycan-Qazaxıstan marşrutu üzrə Xəzər dənizinin dibi ilə Transxəzər Fiber-Optik Rabitə Xəttinin tikintisi və istismarı üzrə birgə müəssisənin yaradılmasına dair Səhmdarlar müqaviləsi imzalanıb. Layihənin mühüm hissəsi olan bu müqavilə onun yekunlaşdırılması istiqamətində tərəflərin birgə səylərini və fəaliyyətlərini əks etdirir. Sənəd "AzerTelecom" şirkətinin daxil olduğu NEQSOL Holding-in Telekom rəhbəri Vasil Latsaniç və "Kazaktelecom"un İdarə Heyətinin sədri Kuanışbek Yesekeyev tərəfindən imzalanıb.***

Sənəd özündə birgə müəssisənin məqsəd və vəzifələrini, xüsusilə idarəetmə məsələlərini, eləcə də Azərbaycan-Qazaxıstan marşrutu üzrə Transxəzər Fiber-Optik Rabitə Xəttinin tikintisinə və istismarına dair müddəaları əks etdirir.

Transxəzər Fiber-Optik Rabitə Xətti "Rəqəmsal İpək Yolu" (Digital Silk Way) layihəsinin Asiya seqmenti olaraq bağlantı xidmətlərinin göstərilməsi üçün rəqəmsal infrastrukturun inkişafında və Avropa ilə Asiyanı birləşdirəcək rəqəmsal telekommunikasiya dəhlizinin yaradılmasında xüsusi rol oynayır. NEQSOL Holding-in Telekom rəhbəri Vasil Latsaniç müqaviləni şərh edərək vurğulayıb ki, Transxəzər Fiber-Optik Rabitə Xətti regionları birləşdirərək və coğrafi sərhədləri aşaraq yüksək tutumlu məlumatların ötürülməsinə imkan verəcək.

"AzerTelecom" və "Kazakhtelecom" arasında əməkdaşlıq yeni bazarlara çıxışın yaradılmasına, ölkələrin internetdən istifadə etməsi, eləcə də məlumatların ötürülməsi imkanlarının yaxşılaşdırılmasına öz töhfəsini verəcək. Bununla yanaşı, Xəzər dənizinin dibi ilə çəkiləcək ilk sualtı kabel marşrutunun yaradılması, bu layihəni unikal edən amillərdən biridir", - deyə Vasil Latsaniç bildirib.

"AzerTelecom" şirkətinin Əməliyyatlar üzrə Baş direktoru Sergey Nazarenkonun sözlərinə görə, birgə müəssisənin yaradılması regionumuzun kommunikasiya infrastrukturunun mənzərəsini dəyişəcək, eləcə də ölkələrin və bizneslərin rəqəmsal inkişafı üçün böyük imkanlara qapı açacaq maraqlı bir səyahətin yeni mərhələsidir.

"Kazakhtelecom" şirkətinin İdarə Heyətinin sədri Kuanışbek Yessekeyev qeyd edib ki, "Kazakhtelecom" və "AzerTelecom" öz sahələrində aparıcı şirkətlər olaraq bu layihənin transformasiya potensialını yüksək qiymətləndirir və onu reallaşdırmaq üçün qüvvələrini birləşdiriblər. "Biz birlikdə Transxəzər Fiber-Optik Rabitə Xəttinin uğurlu tikintisini və istismarını təmin etmək üçün təcrübəmizi, resurslarımızı və baxışımızı birləşdirəcəyik", - deyə o, qeyd edib.

"AzerTelecom" Azərbaycanın aparıcı topdansatış telekommunikasiya operatorudur və NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir. NEQSOL Holding 9 ölkədə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərir. "Kazakhtelecom" Qazaxıstanın ən böyük telekommunikasiya şirkətidir və milli telekommunikasiya operatoru statusuna malikdir.

# Əli Kərimli və adamları yenə də təxribatların önündədirlər



## Gədəbəyin Söyüdlü kəndində baş verənlərdə Rusiyanın Bakıdakı əlaltılarının da izi görünür

Gədəbəy rayonunun Söyüdlü kəndində baş verən hadisələrin üstündən bir qədər vaxt keçdikcə təxribatların kimlər tərəfindən və nəyə görə törədilməsinə dair yeni-yeni məlumatlar üzə çıxır. Hadisə ilə bağlı ölkənin bütün diqqəti Gədəbəyin Söyüdlü kəndinə yönəldi. Baş Nazir Əli Əsədovun sərəncamı ilə kənd ərazisindəki ekoloji vəziyyətin öyrənilməsi üçün komissiya yaradıldı. Artıq komissiya üzvləri ərazidə olub, monitorinq aparıb və kənd əhalisi ilə görüşüb, onların istəklərini dinləyib. Səmimi və mehriban şəraitdə keçən görüşdən sonra kənd əhalisi dövlətin məsələlərə səbirlə və həssaslıqla yanaşmasına görə minnətdarlıqlarını bildiriblər. Hazırda da bu istiqamətdə müvafiq qurumların nümayəndələri tərəfindən işlər aparılır. Xırda insidentin dövlətə qarşı böyük aksiyaya çevrilməsinin qarşısı alınıb.Bəs necə oldu ki, dövlətin yanında olan vətəndaşlar birdən-birə polislə üz-üzə gəldi? Ucqar kənddə bu cür xoşagəlməz durumun yaranmasının arxasında kimlər dayanır?Hadisədə Rusiya ilə bağlı olan "5-ci kolon"un iştirakına dair təkzibolunmaz dəlillər var ki, bununla bağlı faktları aşağıda təqdim edəcəyik.NUHÇIXAN-ın əldə etdiyi məlumata görə, baş vermiş hadisə xarici xüsusi xidmət orqanları tərəfindən məqsədyönlü şəkildə təşkil və idarə olunub, bu zaman sadə kənd əhalisi ilə manipulyasiya edilib.Gəlin bir neçə ay öncəyə nəzər salaq. Azərbaycanın ekofeallları, dövlətimiz bir neçə ay bundan öncə Laçın-Xankəndi yolunda aksiya təşkil etdi və ermənilərin yataqlarımızdan qanunsuz istifadəsi, gizli yollarla silah daşımasının qarşısı alındı. Dolayısı ilə Azərbaycan Rusiyanın "Ruben Vardanyan layihəsini" dardamağın etdi və sülhməramlıların müvəqqəti nəzarətində olan yataqların qanunsuz istismarına imkan verilmədi.Ardınca Azərbaycan Laçında keçid məntəqəsini qurdu. Bütün bunlar baş verən zaman ermənilər hər dəfə sərhəddə təxribatlar törətdilər. Hesab edirlər ki, bununla dövlətimizin qəti qərarlarına əngəl törədib, prosesi öz xeyirlərinə dəyişəcəklər. Lakin buna nail ola bilmədilər. Azərbaycan hərb meydanındakı uğurları ilə yanaşı beynəlxalq siyasi meydanda da uğurlu siyasət apararaq düşməni sarsıtdı və artıq son həftələrlə Ermənistan da başa düşdü ki, sülh müqaviləsini imzalamaqdan başqa çıxış yolu yoxdur. Sülh müqaviləsi ilə bağlı gələn həftə ABŞ-da danışıqların növbəti raundu planlaşdırılır.Bundan başqa, Azərbaycan dünən Londonda keçirilən Ukraynanın bərpasına dair konfransda iştirak edib və Ukraynaya humanitar yardımları davam etdirəcək.Əlbəttə ki, bütün bu məqamlar əsasən bir ölkədə-Rusiyada narazılıq doğurub. Bununla da Azərbaycanda süni yolla qarşıdurma yaratmaq üçün təxribata start verilib.

### Rusiya və Azərbaycanın dağıdıcı müxalifəti niyə narahatdır?

Təxribatın hazırlanmasında və həyata keçirilməsində Rusiyada iri biznes şəbəkəsinə malik şəxslər, o cümlədən Afiq Allahverdiyev,Etibar Cabbarov,Dadaş Şirinov və digərləri təşkil ediblər. A.Allahverdiyev və E.Cabbarov Rusiya Federasiyasının vətəndaşıdırlar, Rusiyada yaşayırlar. Hər iki şəxs hadisədən bir müddət əvvəl yasda iştirak adı ilə Gədəbəydə olublar.



Onlar kəndə böyük vəsait pulla gəliblər. Burada onlar kənd sakinləri arasında nüfuzlu, sosial şəbəkələrdən istifadə etməyi bacaran şəxsləri müəyyən ediblər. Bundan sonra 400 nəfərlik "Whatsap" qrupu yaradılıb.Dadaş Şirinov qızıl yatağında işləyən şirkətdə sürücü kimi çalışıb və daim Allahverdiyev və Cabbarovla əlaqədə olub. Onun Allahverdiyevdən konkret təlimatlar aldığı məlumdur. O, həmçinin aksiyadan çəkilmiş görüntülərin Tik-tok-da geniş yayılmasını təmin etməli idi. Bundan başqa, D.Şirinov təxribatın növbəti mərhələsində çalışdığı müəssisənin işçilərini də aksiyaya cəlb etməli və tətilə səsləməli idi."Whatsap" qrupu üzərindən danışıqlar zamanı A.Allahverdiyev Söyüdlü kənd sakinlərini "ekoloji problemlə" bağlı mütəmadi olaraq "məlumatlandırıb", xüsusilə yataqda "texnologiyanın standartlara uyğun olmaması, gölün üstünün açıq olması, sızıntı olması, gölün dolub daşması, insanların xəstə olması, ağciyər, xərçəng, damar xəstəliklərinin yaranması, insanların çətin nəfəs alması" və s. bu kimi amilləri əsas gətirərək dövlət qurumlarına etirazlar göndərilməsinə dair təlimatlandırıb.

İyunun 20-də baş vermiş qarşıdurma zamanı da Allahverdiyev kənd sakinlərini aqressiv tərzdə istiqamətləndirib, onları İcra Hakimiyyətinin qarşısına toplaşmağa çağırıb və s. Qrupda ən radikal addımlar atmağa dair çağırışlar olub ki, bunu da aşağıdakı səs yazılarından dinləyə bilərsiniz. Səs yazılarında açıq şəkildə təxribatların hazırlanması üçün pul yığıldığı, aksiya edənlərlə bağlı hesabatların istənildiyi eşidilir. İnsanlar küçələrə çıxarılır.

### Təxribatların genişləndilməsinə cəhdlər göstərilib

Hadisə baş verən gün sakinlər məhz bu tapşırıqlara və göstərişlərə uyğun hərəkət ediblər.Məlum olub ki, təxribatın hazırlanması zamanı təşkilatçılar Gədəbəyin keçmiş icra başçısı, bir müddət həbsdə olmuş AXCP üzvü Saleh Rüstəmov və onun oğlu Sezgin Rüstəmovla da təmasa keçiblər. Vaxtilə Moskva bazarlarından Əli Kərimli üçün pul toplaması ilə tanınan S.Rüstəmov və oğlu təxribatçılara lazımi dəstək olacaqlarına söz veriblər.S.Rüstəmov mövzunu siyasiləşdirərək AXCP-nin gündəminə çıxarmalı, oğlu Sezgin isə gənclər arasında təbliğat işi görməli idi.Nazim Məmmədov (Bəydəmirli) əldə olunan məlumata görə, təxribatçıların Rusiya ilə bağlı "5-ci kolon" üzvlərindən olan keçmiş millət vəkili Nazim Məmmədov ilə də təmasları olub və N.Məmmədov Bakıdan bu proseslərin koordinasiyası ilə məşğul olub. Məlumat üçün bildirək ki, vaxtilə vergilər naziri Fazil Məmmədovun dəstəyi və Ramiz Mehdiyevin razılığı ilə parlamentdə təmsil olunmuş N.Məmmədovun bir müddət AXCP-yə maliyyə dəstəyi ayırdığı məlumdur.İyunun 21-də sakinlərdə peyda olan şüar və plakatlar kənddə deyil, Gəncədə sexlərdən birində hazırlanıb. Həmin sexin videosunu təqdim edirik:Qarşıdurma zamanı xüsusi canfəşanlıq edənlərə pul verilib, onlara polisi təxribata çəkmək, onların özlərinə və ailələrinin ünvanına ağır söyüşlər səsləndirməklə hövsələdən çıxarmaq və sərt reaksiyaya təhrik etmək tapşırılıb.

Təxribatın informasiya təminatı üçün Meydan TV, Toplum TV və bir sıra digər "bloger"lər əvvəlcədən hadisə yerinə gəliblər, bir neçə kamera ilə müxtəlif rakurslardan çəkiliş ediblər. Bu zaman polisə qarşı təhqir və zorakılıq halları göstərilməyib, yalnız cavab tədbirləri geniş çəkilərək yayılıb.Bütün bunlarda əsas məqsəd – xırda insidenti böyüdərək dövlətə qarşı aksiyaya çevirmək olub.Amma dövlətin çevik reaksiyası, vətəndaşların məsuliyyətli yanaşması və icra orqanlarının əhali ilə təması nəticəsində təxribatın qarşısı alınıb.Bundan sonra da əhali ilə yuxarıda qeyd etdiyimiz kimi, danışıqlar aparılacaq və kimlərinsə məkrli, xain istəkləri baş tutmayacaq. Gədəbəy Rayon İcra Hakimiyyətinin sabiq başçısı Saleh Rüstəmov və onun qardaşı oğlu Vidadi Rüstəmli həbs edilib. Məhkəmənin qərarı ilə ona qarşı 4 aylıq həbs-qətimkan tədbiri seçilib: "Saleh Rüstəmov Rusiya vətəndaşıdır, orada yaşayır, Azərbaycana qonaq gəlmişdi. Şəmkirdə saxlanılaraq barəsində həbs qərarı çıxarıldı. Vidadi Rüstəmli isə Bakıda saxlanılıb. Onların həbsinin səbəbləri bizə bəlli deyil".

### Əli Kərimlinin adamı yenə də iş başındadır

Xatırlatmaq lazımdır ki, Saleh Rüstəmov 1992-1993-cü illərdə Gədəbəy rayon İcra Haimiyyətinin başçısı olub. Vəzifəsində arxivə göndərildikdən sonra Rusiyaya üz tutub. Özünə Gədəbəyə topladığı maliyyə imkanları hesabına iri biznes şəbəkəsi qurub. Bir müddət sonra Azərbaycanın təxribat maşını hesab olunan dağıdıcı müxalif ünsürlərlə əlaqə quraraq onlarla əməkdaşlıq etməyə başlayıb. Yenə də bir məlumatı xatırladaq ki, bir qədər əvvəl mətbuatda Saleh Rüstəmovun AXCP sədri Əli Kərimliyə və onun informasiya təbliğatçısı Qənimət Zahidə böyük məbləğdə maliyyə vəsaiti verdiyi barədə xəbərlər yayılmışdır. Bu məlumatları Ə.Kərimli nə təsdiq, nə də təkzib etməsədə Q.Zahid dolayısı ilə S.Rüstəmovdan pul aldıqlarını etiraf etdi. Buradan bir məsələ ortaya çıxır ki, deməli, Söyüdlü kəndində baş verən təxribatlarda Ə.Kərimlinin, Tofiq Yaqublunun və digərlərinin də rolu olub. Təbii ki, istintaq araşdırmaları ilə S.Rüsəmov Ə.Kərimli ilə necə və hansı formada əməkdaşlıq etdiyini aydınlaşdıracaq. Bütün hallarda o fakt bir daha ortaya çıxır ki, Ə.Kərimli, ölkəmizdə baş verən təxribatlarda ya birbaşa iştirak edir, ya da dolayısı ilə təxribatlarda iştirak edir. Hüquq mühafizə orqanlarının hələ də Ə.Kərimliyə qarşı hüquqi tədbirlər görməməsi bir qədər təəccüb doğurur, həm də başa düşülmür.

**İ.ƏLİYEV**



Elçin Bayramlı

# Bu körpə qatilləri niyə cəzasız qalır?

***BMT-nin araşdırmalarına görə, hər il dünyada 55 milyondan çox qadın abort olunur. Onların 20 milyondan çoxu qeyri-leqal abortlardır ki, bu da ana ölümü hallarının artmasına səbəb olur.***

Dünya üzrə hər 1000 qadına il ərzində 35 abort düşür. Bu sahədə ən aşağı göstərici Hollandiya, Belçika, Almaniya və İsveçrədədir- il ərzində 1000 qadına 10 abort. Ən yüksək göstəricilər Vyetnam, Rumıniya və Kubadadır- hər 1000 qadına il ərzində təxminən 80 abort.

Bir çox müsəlman ölkələrində (İran, Misir, Əfqanıstan, Türkiyə, BƏƏ, İraq, Suriya, Yəmən) abortla qanunla qadağandır. Yalnız Səhiyyə Nazirliyi mütəxəssislərinin rəyindən sonra və yalnız hamiləliyin 4-6 həftəsinədək aborta icazə verilə bilər. Azərbaycanda isə qanunvericilik, abortları qadağan eləmir. Lakin, Cinayət Məcəlləsinin 116-cı maddəsinə görə, qadını abort etdirməyə məcbur eləmək cinayət məsuliyyəti yaradır.

Rəsmi məlumatlara görə, hər il ölkədə 30 min civarında abort əməliyyatı aparılır. Nəzərə alsaq ki, bizdə faktiki edilən abortların böyük hissəsi qeydiyyata alınmır, o zaman məlum olar ki, Azərbaycanda bu sahədə vəziyyət təsəvvür edildiyindən də ağırdır. Qeyri-rəsmi məlumatlara görə ölkədə abortların sayı 100 mindən yuxarıdır. Abort əksər hallarda qadının öz arzusu ilə reallaşır. Amma deməliyəm ki, bəzən onları bu addıma ailədə məcbur edirlər. Hətta, bəzi hallarda qadınlar körpəsini dünyaya gətirmək istəyində olsa da, onu zorla aborta məcbur edirlər.

Abort etdirənlər arasında başqası ilə cinsi əlaqədə olan və ya zorlanan məktəbyaşlı qızların sayı getdikcə artır. Belələri, gənc oğlanlarla cinsi münasibətdə olurlar və hamilə qaldıqları məlum olanda ailələrindən xəbərsiz abort etdirirlər. Tanış həkimlər deyir ki, onlara hətta 14-15 yaşlı qızlar da müraciət ediblər abort üçün, bəziləri ildə 3-4 dəfə gəlir.

Burada sosial problemlərlə yanaşı, mənəvi psixoloji problemlər də mühüm roy oynayır. Şəxsən mən hesab edirəm ki, abortların arasında ən çoxu elə mənəvi səbəblərdən yaranan abortlardır ki, burda da cəmiyyətin əxlaqi dəyərlərinin getdikcə daha çox deqradasiya olduğunu görürük.

Müxtəlif beynəlxalq təşkilatların hesabatlarına görə, Azərbaycan dünyada ən çox selektiv abort baş verən ölkələrdən biridir. Son dövrdə oğlan uşaqlarının sayı sürətlə artır. 10 il əvvəl qızların oğlanlara nisbəti 49:50 idisə, indi 48:52-dir. Buna səbəb qız uşaqlarının doğulmamışdan əvvəl cinsinə görə abort etdirilməsidir.

Azərbaycanda qız uşaqlarının son illər daha çox abort etdirilməsinin səbəbi bu göstərilirdi ki, ölkədə ultrasəs müayinəsi son illərdə keçmiş dövrə nisbətən daha əlçatan olub. Lakin respublikamızda həkimlərə USM müayinəsi zamanı uşağın cinsiyyətini demək qadağan olunub, bu, yalnız abort edilmə vaxtı keçəndən sonra, doğuşa az qalmış mümkündür.

Buna baxmayaraq, selektiv abortların sayı azalmaq əvəzinə artır. Deməli, valideynlər bunu öyrənməyin yolunu tapıblar. Ya rüşvət qarşığında həkimlər deyir, ya da hansısa yolla aydınlaşdırırlar.

Qeyd edək ki, təbii halda hər 100 qıza qarşı 105 oğlan doğulur. Amma bəzi ölkələrdə bu balans selektiv abortlarla oğlanların xeyrinə dəyişdirilir. Hazırda hər 100 qıza qarşı Azərbaycanda isə 115 oğlan doğulması düşür.

Bu göstərici artıq SOS siqnalıdır. Buna görə də, abort faktiki qətl hesab olunmalı, buna görə ağır cəza tətbiq edilməlidir. Əks halda, yaxın gələcəkdə cox ciddi demoqrafik problemlərlə qarşılacağıq.

Abortun qadağan edilməsi insan hüquqlarına zidd deyil, tam əksinə- bu, insan hüquqlarını qorumaqdır, elm təsdiq edib ki, doğulmamış körpə hələ 2 aylığından insana xas bütün əlamətlərə malikdir. Faktiki olaraq, abort birbaşa qətl hadisəsidir, insan öldürməyə görə verilən cəzalar burada da tətbiq edilməlidir. Uşaq qatilləri ciddi cəzalandırılmalıdır, burada iştirak edən həkim də, digər ailə üzvləri də. Bizə yalnız oğlanlardan ibarət cəmiyyət lazım deyil. Gələcəkdə oğlanlarımızı oğlanlarla evləndirmək istəmiriksə.

# Sahibsiz və vəhşi küçə itləri: fəsadlar və çıxış yolu

***Texnologiyanın inkişaf etdiyi, dünyanın çox xırda məsələlərə ciddi yanaşdığı bir dövrdə küçə itlərinin qeyri-qanuni formada, küçənin ortasında öldürülməsi, yandırılması vəhşilikdir, barbarlıqdır.***



SİA mövzuyla bağlı araşdırma aparıb. İbtidai icma quruluşunda belə zərərsiz heyvanı öldürmək anormal bir davranış sayılırdı. Deməli belə bir davranış vəhşiliyin çərçivələrinə belə sığışmır. İnsanlar çox vaxt küçə itlərini antisanitar vəziyyət yaratdıqları, hürdükləri, aqressiv davranışlar göstərdikləri üçün sevmirlər. Amma bu səbəblərin hamısına ayrı-ayrılıqda baxsaq görərik ki, bunların bir çoxu bizim günahımızdır. Məsələn, bir çoxumuz küçə itlərinin yara-xora içində olduğunu, bədənlərində müxtəlif daxili və xarici parazitlər daşıdığını biliik. Bəs bunun səbəbi nədir? Satışda ən bahalı daxili parazit dərmanının dənəsi 10 manatdır. Üç aydan bir itə qurd dərmanı verilməsi onu daxili parazitlərdən və onların törədə biləcəyi fəsadlardan qoruyur. Dürüst olaq, bir canı xilas etmək üçün 3 aydan bir 5-10 manat xərcləmək nə dərəcədə çətindir?



Gələk aqressiya məsələsinə. Biz, uşaqlarımız küçədə gördüyümüz itləri vururuq, daş atırıq. Hər bir canlı kimi insanlardan pislik görən itlər də gələn dəfə daha ehtiyatlı olur. Bir insanın əməlinin cəzasını başqa günahsız insanlar çəkir və bizdə belə bir anlayış formalaşır ki, itlər aqressiv və durduq yerə insanlara hücum edən canlılardır. Hürmək məsələsinə gəlincə, dünyada it səsi təbiətin təbii səsi kimi qəbul olunur. Külək, yağış, quş səsi təbii olduğu qədər it səsi də dünyanın, təbiətin səsidir. Onlar əşya yox, təbiətin bir parçasıdır. Dünyanın ən sadiq canlıları olan, lazım gələrsə sahibi üçün ölə biləcək qədər ona bağlı olan bu canlıları gülləyə düzmək, yaralamaq hansı insanlığa sığar.

Dünya "küçə iti" problemi ilə fərqli metodlarla mübarizə aparır. Məsələn, Yaponiyada küçə iti nüfuzu 0 faizdir. Həmçinin Avropada da bu problem yox səviyyəsindədir. Buna səbəb itlərin çoxalmasına ciddi nəzarət olunmasıdır. İnsanlar elə başa düşür ki, bunu yalnız dövlət etməlidir. Lakin dünya praktikası bu məsələnin sadəcə 20 faizinin dövlət tərəfindən həll olunduğunu göstərir. Yəni burada yükün əsas hissəsi vətəndaşların üzərinə düşür. Birinci növbədə, it sahiblənərkən qətiyyətli, əmin olmalıyıq. Bu dəqiqə küçədə gördüyümüz itlərin hamısı insanların küçəyə atdıqları itlərin öz aralarında çoxalması nəticəsində yaranan, ya da birbaşa küçəyə atılan itlərin özləridir. Bir çoxumuz anlıq həvəsə gəlib it sahiblənirik. Daha əvvəl sadəcə quş, pişik, balıq saxlayanlar itin də o ev heyvanları qədər asan qulluq tələb etdiyini düşünürlər. Buna görə də ən xırda çətinliklə üz-üzə qaldıqda it ya satılır, ya da küçəyə atılır. Qəribəsi odur ki, daha sonra eyni adamlar küçə itlərindən şikayət etməyə başlayırlar.



Sahibsiz itlər bir çox Avropa ölkəsində mütəmmadi olaraq peyvəndlənirlər, qısırlaşdırılırlar. Daha sonra onlar sığınacaqlara yerləşdirilir. Bir müddət orada qaldıqdan sonra heç kim onları sahiblənmirsə onlara evtanaziya tətbiq olunur. Yəni ağrısız formada öldürülürlər. Bu özü də etik cəhətdən mübahisəli mövzu ikən, küçənin ortasında sağlam, qısırlaşdırılmış itləri güllə ilə öldürmək, yaralamaq nədir? Bu hərəkət nə dini, nə qanuni, nə də əxlaqi çərçivəyə sığmır.

### Bəs görəsən bu problemin qabağını necə almaq olar? Hansı tədbirlər görülə bilər? Belə hadisələr niyə baş verir?

**Araşdırmamızı daha da genişləndirmək üçün Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, Prezident təqaudcüsü, yazıçı-kulturoloq Aydın Xan Əbilovdan fikirlərini aldıq:** "Dünyanın bir çox ölkələrində ətraf mühitə, təbiətə, heyvanlara qarşı kobud rəftarla biz tez-tez rastlaşırıq. Azərbaycanda da bu problemlər var. Əhalinin ətraf mühitlə bağlı baxışları təcili sürətdə dəyişilməlidi. Biz istər şəhəriçi, istər digər məkanlarda çox kobudcasına canlı aləmə vurulan zərbələri görürük. Bəziləri itlərin gözünü çıxarır, onları boğur, öldürür. Bununla əlaqədar çoxsayılı faktlar sosial şəbəkələrdə gün üzünə çıxarılır.

Biz tez-tez magistral yollarda çöl heyvanlarını, yolu keçən itləri, pişikləri vurub yaralı şəkildə orada qoyub gedən insanlara, aidiyyatı qurumların ev və sahibsiz heyvanlara qarşı laqeydliyinə şahid oluruq. Ancaq vəziyyət düzəlmək əvəzinə daha da pisləşir. Azərbaycan xalqı belə kobudluqlara, qeyri-humanist davranışlara "yox" deməlidir. Xüsusən gənc nəslin bu barədə maarifləndirilməsinə xüsusi önəm verilməlidir. Kiçik bakteriyadan tutmuş filə qədər, həmçinin ağacların, bitkilərin bu həyatda, təbiətdə özünəməxsus yeri var. Onların məhv edilməsi həyatımızın məhv edilməsi deməkdir. Bu baxımdan istər aidiyyatı qurumlar, istərsə də əhali arasında maariflənməyə böyük ehtiyac var. İnsanlar özlərini sivil toplumun nümayəndələri kimi aparmalıdırlar. Biz sahibsiz itlərə, ev itlərinə, pişiklərinə, bir sözlə heyvanlara qarşı sayqı ilə yanaşmalıyıq. Sahibsiz it problemi ilə mübarizə aparan qurumlar onları güllələməklə, öldürməklə məsələni həll etməməlidirlər. Sahibsiz heyvanlar lazımi formada toplanıb, onlar üçün ayrılmış sığınacaqlara aparılmalıdırlar. Məsələn, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın rəhbəriyliyi altında fəaliyyət göstərən "İDEA" İctimai Birliyi bu barədə çox ciddi işlər görür. Onlar itlər, pişiklər üçün sığınacaqlar tikir, onların qayğısına yüksək səviyyədə qalırlar. Biz bu gözəl addımlardan ibrət götürməliyik".









**Mövzumuzla əlaqədar olaraq sahibsiz itlərə təmannasız kömək edən, məsələ ilə bağlı bir çox ictimai təbliğatlar aparan, könüllü Afaq Kazımovaya da müraciət etdik:** "Sahibsiz heyvanların öldürülməsi qətiyyən yol verilməzdir; həm qanunla qadağandır, həm də insanı cəhətdən qəddarlıq nümunəsidir.

Əhalinin bir hissəsi itlərdən qorxa, çəkinə bilər, burda qeyri-adi heç nə yoxdur, amma qorxmaq ölümə səbəbiyyət gətirməməli, insanlarla bu sahədə maarifləndirmə aparılmalıdır, necə ki, "İDEA " İctimai Birliyinin Sahibsiz Heyvanlar üçün Qayğı Mərkəzi mütəmadi olaraq məktəb və bağçalarda heyvanlarla davranış qaydaları haqqında maarifləndirmə tədbirləri görür. Sakinlər anlamalıdır ki, heyvanlar da bizim kimi təbiətin bir parçasıdır. Heyvana bu gün haqsızlıq olunur, həyatı əlindən alınırsa, sabah o haqsızlıq eynilə insana qarşı edilə bilər. Eləcə də digər bir kəsim heyvanları sevir, uşaqları onları bəsləyir və uşaq bəslədiyi heyvanln öldüyünü biləndə dərin sarsıntı yaşayır.

İtlərin sayının nəzarətdə olması, atmaması üçün yeganə humanist yol qısırlaşdırılma və eyni zamanda xəstəliklərin qarşısını almaq üçün mütəmadi peyvəndləmə aparılmasıdır. Həyətində, evində it saxlayan insanlar o itə ailə üzvü kimi yanaşmalı, onun bir müddət sonra küçəyə atılmasının, balalarının azdırılmasının cəza və cərimələrlə qarşısı alınmalıdır. Təəssüf ki, bu sahədə kifayət qədər maarifləndirmə yoxdur, küçədə sahibsiz itlərin çoxalması da sırf insan əməlidir. Eləcə də sığınacaqlar olmalı, müəyyən sayda heyvanlar müvəqqəti sığınacaqlarda qalmalı, insanlar heyvan sahiblənərkən rəsmi cavabdehlik imzası ilə sığınacaqdan sahiblənməlidir. Bunlar hamısı mərhələli və düzgün şəkildə həyata keçirilməlidir, ancaq təkrar edim ki, insanlar evində baxdıqları heyvanları vaxtında qısırlaşdırmasalar, sağlam şəkildə ona həyatının sonuna qədər baxmasalar, küçəyə atsalar bu problemin həllini çətinləşdirəcək. Sığınacaq, qısırlaşdırma və peyvəndləmə işlərində könüllülər və dövlət birgə çalışmalıdır".

***Fazil Mehdixanlı***

ARAŞDIRMA

# PİKNİK

FELYETON



***Hə, Molla əmi, deyirlər, piknik dövrü başlayıb. Bu piknik müasir dövrün sözüdür, əvvəllər bizdə piknik-miknik yox idi. Hər gün yeni bir söz çıxır ortaya. Biz də lüğətimizdəki sözləri arxaikləşdirib atırıq arxivin bir küncünə, başlayırıq yeni sözləri dilimzə yamaq etməyə.***

Hə, bu piknik gəzmək, istirahət, asudə vaxt mənalarını verən bir sözdür. Məsələ bu deyil ey, məsələ ayrıdır, amma dedim elə piknikdən danışıramsa, sözün bizə aidiyyatı olmamasını da bir diqqətə çatdırım.

Yaxşı, olsun piknik. Bizdə piknik nədir? Piknik deyəndə nə başa düşülür? Piknik deyiləndə ilk ağılagələn nə olur? Bax, məsələ budur.

Bəli, mən deyim, siz də dinləyin, Molla əmi də dinləyib bu məsələyə ağsaqqalyanə bir fikir bildirsin.

Piknik deyiləndə bizdə gözlər önünə gələn ilk görüntü zibillik olur. Yəni insanlar düşünürlər ki, mən gedirəm piknikə, yəni ki, abad bir yeri bərbad etməyə. Yəni ki, təmiz bir yeri zibillətməyə. Yəni ki, gedib yeyib-içib, tullantıları da elə oraya dağıdıb gəlməyə. İnanırsınız, inanın, inanmırsınız da, bu, sizin öz işinizdir, piknik bizdə zibil deməkdir.

Yaxşı, bəlkə də qalxıb mənim dediklərimlə razılaşmayanlar olacaq. Olsun, nə deyirəm ki... Razılaşmamaq olar, lakin dediyin sözü sübut etməlisən. Bunun üçün də indi ki, piknik sezonu başlayıb, çıxsın gəzməli-görməli yerlərə, parklara, meşələrə, harada bir qrup adamın yığışdığını, əyləşdiyini görsəniz, bilin ki, onlar piknikdədirlər. Bir qədər əziyyət çəkin, gözləyin, onlar qalxıb gedəcəklər. Burada gördüklərinizdən sonra mənimlə razılaşacaqsınız ki, bizdə piknik zibil deməkdir. Pikniklə bağlı yaranan söz, söz birləşmələri və cümlələr:

-Piknik-zibil

-Piknikə gedirəm-zibillətməyə gedirəm

-Piknikdən gəlirəm-abad yeri bərbad etməkdən gəlirəm

-Gözəl piknik etdik-ətrafı yaxşıca zibillətdik

-Bu həftə piknikə getməyək?-bu həftə yaşıllıqları zibillətməyək

Bax, dilimizə daxil olan bu sözdən qaynaqlanan arzu və istəklər yalnız yuxarıdakıları ifadə edir.

Hə, Molla əmi, sən nə deyirsən? Mənimlə razısan, yoxsa pikniki zibillətmək hesab etməyənlərlə?

Molla əmi:- Əlbəttə, səninlə razıyam. Çünki mən bu insanları yaxşı tanıyıram. Bunlar biz zaman küftəyə "qofta" deyən abrazovannılardır da. İndi də istirahətə piknik deyirlər. Ay bala, sən bizim yanımızda uşaqsan. Biz bu insanlara illərlə dedik-dedik, bir qulaqlarından alıb o birindən ötürdülər havaya. İndi sən nəyi qoyub, nəyi danışırsan? Bilirəm, yaxşı bilirəm ki, bunlar düzələn deyil. Ona görə də barı siz dayanıbdurmayın. Bir ucdan yazın ki, bəlkə arada bir nəfərin qulağının açıq vaxtına düşər, eşidər və o birilərə də deyər...

***Mətanət Məmmədova***



***Gənclərin ibtidai hərbi hazırlığı Azərbaycan Respublikasının Konstitusiyasına, Azərbaycan Respublikası Prezidentinin Fərmanlarına, Təhsil haqqında, Azərbaycan Respublikasında "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa, Nazirlər Kabinetinin qərarlarına, bu Əsasnaməyə və digər normativ hüquq aktlarına əsasən həyata keçirilir.***

# Hərbi hazırlıq təlimi: Məktəbdən orduya



Hazırda Azərbaycanda ümumtəhsil müəssisələrinin 10 və 11-ci siniflərində oğlan və qız şagirdlərinə il boyu 68 saat və həftədə 2 saat olmaqla "Çağırışaqədərki hazırlıq" dərsləri tədris olunur. Fənnin tədrisi Gənclərin İbtidai Hərbi hazırlıq Əsasnaməsinin 29 may 1998-ci il qərarına uyğun olaraq tənzimlənir. Fənni tədris edən müəllimlər Azərbaycan Dövlət Pedeqoji Universitetinin hərbi hazırlıq və fiziki təlim fakultəsini bitirən məzunlar və eyni zamanda, silahlı qüvvələrdən ehtiyata buraxılan zabitlərdir.



İbtidai hərbi hazırlıq (İHH) gənclərin silahlı qüvvələrdə xidmətə çağırışaqədərki hazırlığının tərkib hissəsidir. Azərbaycan Respublikasının müdafiəsi üçün orduya çağırılan hər bir gənc hərbi hazırlığın gedişi prosesində Azərbaycan Respublikasının Konstitusiyasını, Respublika Silahlı Qüvvələrinin vəzifələrini, xüsusiyyət və əhəmiyyətini, hərbi qulluğun hər bir vətəndaşın müqəddəs borcu olduğunu dərk etməlidir.

Gənclər hərbi andın tələblərini, hərbi nizamnamələri öyrənir, hərbi hissənin silah və sursatları, hərbi texnikası, şəxsi heyətin yerləşdirilməsi və sosial-məişət tərzi ilə tanış olur, qulluq etmiş gənc əsgərin hazırlığı həcmində nəzəri hərbi biliklərə və praktik vərdişlərə yiyələnir, mülki müdafiənin əsaslarını, kütləvi təbii və texnogen xarakterli fövqəladə halların nəticələrindən mühafizə və kütləvi qırğın silahlarından müdafiə olunma üsullarını öyrənir.

İHH tabeçiliyindən və mülkiyyətindən asılı olmayaraq bütün ümumi təhsil, peşə təhsili və orta ixtisas təhsili müəssisələrində dövlət əhəmiyyətli bir fənn kimi hərbi rəhbər tərəfindən tədris olunur. Əsgəri xidməti başa vurmuş, həmçinin bir təhsil müəssisəsində İHH proqramını tam bitirmiş şəxslər, başqa bir təhsil müəssisəsinə keçdikdə İHH dərslərinə cəlb olunmurlar. Bu şəxslərdən hərbi rəhbər köməkçisi kimi istifadə edilə bilər. Gənclərin ibtidai hərbi hazırlığına Azərbaycan Respublikası Təhsil Nazirliyi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən rəhbərlik və nəzarət edilir.

Təhsil müəssisələrində "Çağırışaqədər Hazırlıq" fənninin tədrisi prosesində gənclər Respublikamızın Müdafiə qüdrətini, Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarından irəli gələn vəzifələri Silahlı Qüvvələrin vəzifələrini, Nizamnamələrin tələblərini öyrənir, gənc əsgər səviyyəsində bilir və bacarığa yiyələnirlər. Çağırışaqədər Hazırlıq fənninin əsas məqsədi gəncləri ölkənin müdafiəsinə hazırlamaqdan ibarətdir. Bu dərsin əhəmiyyəti həm də gənclərin hərbi xidmətə getdikləri ilk aylarda cəlb olunduqları təlim dövründə daha tez nəticə əldə etmələrinə, habelə silahla davranmağı daha peşəkar qaydada öyrənmələrini tezləşdirməyə yardım etməsidir.

"Çağırışaqədər Hazırlıq" dərsliyindəki mövzularda Silahlı Qüvvələrin yaranması və inkişaf tarixi, hərbi qulluqçuların vəzifələrindən, Hərbi Nizamnamələrdən, Hərbi And və Hərbi Himn, Döyüş Bayrağı haqqında əsasnamələrdən məlumat verilir, atəş hazırlığı, taktiki hazırlıq, hərbi topoqrafiya, fövqəladə hallar və onların təsnifatlı barədə, sağlam həyat tərzi və tibbi yardım qaydaları haqqında şagirdlərə bilik verir, bacarıq və vərdişlərin aşılanmasına kömək edir.

Məktəblərin əyani vəsaitlərlə təchiz edilməsi istiqamətində işlərin aparıldığı da bildirilir. Bakı şəhəri üzrə Təhsil İdarəsinin 308 ümumtəhsil məktəbinin 100-ə yaxınında "elektron silah" layihəsi həyata keçirilir. Bu layihə çərçivəsində məktəblər atış simulyatorları ilə təchiz olunub. Bu da dərslərin inovativ üsullarla keçirilməsinə imkan verir. Şagirdlər hər tədris ilində proqram materialına uygun olaraq elektron silahdan atəş açır, atışın əsas və qaydalarını öyrənir, həmin silah komplektinə daxil olan digər AK-74 avtomatını söküb yığırlar, darağa patronun doldurub boşaldılması qaydaları öyrədilir. Təlim minaları, təlim qumbaralarının təyinatı və quruluşu haqqında məlumatlar verilir, mülkü müdafiə hazırlığı üzrə əleyhqazın geyinib çıxardılması və ilk tibbi yardım qaydaları, yaralının təhlükəli zonadan çıxarılması qaydaları praktik olaraq yerinə yetirilir.

Lakin hərbi rəhbərlər orta məktəblərdə hərbi kabinetlərin və maddi-texniki bazanın olmamasını bu sahədə dərsliklə yanaşı, əsas problemlərdən biri kimi görürlər. Bəzi yerlərdə məktəblər yaxınlıqda yerləşən hərbi hissələrlə dostluq və əməkdaşlıq münasibətləri yaradaraq, əyani dərsləri hərbi hissələrdə keçir. Lakin bu da qaneedici deyil, qalıcı həll yolu mütləqdir. Çünki vətənin müdafiəsinə gedəcək gənclərin ibtidai hərbi savadı və bacarığı onların 1 addım öndə olması deməkdir.

***Lalə Mehralı***

# “Ermənistan Qarabağın birdəfəlik itirilməsi ilə artıq barışıb”

**Rusiyalı ekspert: Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması prosesi Azərbaycan tərəfindən öz ərazilərinin tam şəkildə qaytarılmasına qədər gedəcək**



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması” istiqaməti çərçivəsində hazırlanıb.***





***Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti Aleksey Naumov Ermənistan-Azərbaycan nizamlanması ilə bağlı “Moskva-Baku” portalına müsahibəsində maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.***

**- Görünür, indi biz əsasən, Ermənistan-Azərbaycan sərhədində vəziyyəti düzəltmək üçün Aİ-nin Ermənistanda qondarma monitorinq missiyasının genişləndirilməsindən danışmalıyıq...**

- Əlbəttə, deyə bilərik ki, İrəvan Avropa İttifaqının Qarabağdakı missiyasını genişləndirmək üçün istənilən mümkün bəhanələrdən istifadə edir. İrəvan açıq-aşkar münaqişədən sonrakı vəziyyətlə bağlı öz maraqlarına necə deyərlər, “yem tökür”. İyunun 15-də Laçın yolunu Ermənistan tərəfinin atəşə tutmasından sonra avropalı deputatlar onun yaxınlığındakı zonaya baş çəkirlər. Yəni, İrəvan Laçın yolunda baş verən hadisədən Aİ missiyasını genişləndirmək üçün “səbəb” kimi istifadə edir.

Amma Ermənistan bölgədəki ərazi reallıqlarını tanıdıqdan sonra öz siyasi gələcəyi haqqında düşünməli olacaq. Aydındır ki, bu siyasi gələcək çox da qibtə olunmayacaq. Bugünkü Ermənistanın dünya ictimaiyyətinə verə biləcəyi böyük faydalar olmadığı halda İrəvan çoxvektorlu siyasət yürütməkdə davam edəcək. Avropa İttifaqı ilə münasibətlər Ermənistan üçün ən mühüm xarici siyasət istiqamətlərindən biri olaraq qalacaq. Ermənistanın “xeyirduası” ilə Avropa İttifaqının Ermənistan ərazisinə ardıcıl soxulması mövcuddur və bundan sonra da davam edəcəkdir.

**- Dünən Laçın yolu yaxınlığındakı əraziyə səfər edən Aİ nümayəndə heyətinə növbəti dəfə Fransanın təmsilçisi rəhbərlik edib. Nəzərə alsaq ki, bundan əvvəl Kişinyovda beştərəfli görüşdən sonra (Azərbaycan prezidenti, Ermənistanın baş naziri, Fransa prezidenti, Almaniya kansleri, Avropa Şurasının rəhbəri) rəsmi Bakı bir daha Fransa prezidentini tənqid etdi- mesaj verdi ki, onun yekun bəyanatı razılaşmanı əks etdirmir. 15 iyun hadisəsindən sonra da Paris Ermənistanın tərəfini tutdu. Fransanın addımlarına necə baxmaq olar?**

- Fransa Ermənistanın köməyi ilə bölgəyə öz “çəkmə”sini qoyur və bununla da öz maraqlarını bəyan edir. Fransa Makronun rəhbərliyi altında dünya siyasətində nüfuzlu oyunçu olmağa çalışır, Ermənistan isə onun regional dayaqlarından biridir. Üstəlik, Avropa İttifaqının təsiri altında yaradılan anti-Rusiya və anti-Azərbaycan koalisiyaları. Beləliklə, Fransa Ermənistandan fransız gücünün dünyada öz zirvəsinə qədər qalxması üçün bir platforma kimi istifadə edərək öz statusuna “sərmayə qoyur”.

**- Mayın 25-də Kremldə Azərbaycan, Ermənistan və Rusiya liderlərinin Moskva görüşündən sonra nəqliyyat və iqtisadi əlaqələrin blokunun açılması üçün konkret perspektivlər varmı?**

- Təəssüf ki, indi konkret nəticələrdən danışmazdım, çünki vəziyyət ağır olaraq qalır. Biz görürük ki, İrəvan Azərbaycan və Ermənistan arasında normallaşma cəhdlərini süründürməkdə davam edir. Əlbəttə, mən nəqliyyat və iqtisadi əlaqələrin yavaş-yavaş açılmasına ümid etmək istərdim, lakin indi bu istiqamətdə çox da optimist olmazdım. Əgər alınarsa, lap yaxşı, amma buna baxmayaraq, hələlik, yaxın gələcəkdə hər hansı həlledici irəliləyiş görəcəyimizi düşünmürəm.

**- Ermənistan, görünür, Azərbaycanla Ermənistan arasındakı nəqliyyat marşrutları blokdan çıxarıldıqdan sonra öz ərazisində artıq Rusiya FSB-sinin nəzarət etməsindən imtina edir. Bu barədə Ermənistan Təhlükəsizlik Şurasının katibi danışıb, baş nazirin müavini Mqer Qriqoryan isə dəfələrlə eyham vurub.**

- Ermənistanın Rusiya FSB-nin dəhlizə nəzarət etməsindən imtina etməsi birbaşa üçtərəfli bəyanatın pozulmasıdır. Eyni zamanda, buna baxmayaraq, Ermənistan onsuz da Qarabağın itirilməsi ilə artıq barışıb. İndi o özü üçün ən əlverişli şərtləri müzakirə etməyə çalışır. Eyni zamanda, o, guya “müstəqillik” nümayiş etdirmək, Ermənistan da daxil olmaqla, Zaqafqaziyada nüfuzunu genişləndirmək istəyən Avropa İttifaqına xoş gəlmək üçün bir daha anti-Rusiya “qürub” nümayiş etdirir.

**- Paşinyan gələn həftə Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında danışıqların keçiriləcəyini açıqlayıb. Göründüyü kimi, onlar Azərbaycan və Ermənistan liderlərinin iyulun 21-də Brüsseldə planlaşdırılan görüşü ərəfəsində keçiriləcək.**

- Vaşinqtondakı danışıqlar Ermənistan üçün xüsusi əhəmiyyət kəsb edir, məqsədi bir daha Amerika isteblişmentinə “yemi atmaq” və qarşılıqlı fəaliyyətə hazır olduğunu, Ermənistanın ABŞ-ın vasitəçiliyini yüksək qiymətləndirdiyini və sevdiyini söyləməkdir.

Əslində, obyektiv olaraq Ermənistan-Azərbaycan nizamlanması prosesi Azərbaycan tərəfindən öz ərazilərinin tamamilə geri qaytarılmasına, Azərbaycanın bütün ərazilərində konstitusiya quruluşunun tam bərpasına qədər gələcəkdir. Ona görə də konkret görüşlər Bakının vəzifələrinin həllinə gətirib çıxaracaq ümumi kumulyativ effekt qədər vacib deyil.

***Tərcümə - Elçin Bayramlı***



SƏS
24 iyun
2023-cü il

# Ailədaxili münaqişələr mediada necə paylaşılmalıdır?

***"Ailədaxili münaqişələr, zorakılıq halları təbii ki, mediada daha çox paylaşılır. Amma bu, necə olmalıdır? İlk növbədə Media haqqında qanunda da var, eyni zamanda, medianın, kütləvi informasiya vasitəsinin özünün də fəaliyyətində nizamlanan peşə-davranış qaydaları, etik kodekslər var. Buna uyğun olaraq bu cür işlər həyata keçirilməlidir. Jurnalistin etik, peşə-davranış qaydalarında da Media haqqında qanunda da bu məsələlərlə bağlı xüsusi məhdudiyyətlər var". Bu sözləri SİA-ya açıqlamasında media eksperti Yadigar Məmmədli deyib.***



Onun sözlərinə görə, bu məhdudiyyətlər barədə bütün media işçilərinin məlumatı olmalıdır: "Məsələn, əgər haqqında danışılan ailə məşhur deyilsə onlar haqqında çox geniş məlumatlar yayılmamalıdır. Çünki cəmiyyət üçün məşhur insanlar maraqlıdırsa bu məlumatlar yayılır. Adi insanlarla tanınmayan insanlar arasında müəyyən fərq qoyulmalıdır. Bütün bu hallarda belə adların çəkilməsi, azyaşlı uşaqların adlarının hallandırılması, onlarla bağlı ifadə və məlumatların geniş verilməsi yolverilməzdir və etik çərçivəyə sığmır".

Ekspert sözlərinə davam edərək bildirib ki, çox təəssüf ki Azərbaycanda bu qaydalara xüsusi riayət olunmur: "Sosial şəbəkələrdə daha çox izləyici toplamaq üçün bu qay-

### Ekspert məsələyə aydınlıq gətirdi

dalara əməl olunmur. Lakin bu, bütövlükdə həm bizim qəbul etdiyimiz qaydalara, həm Media Haqqında Qanuna, həm də bizim əxlaqi və mədəni dəyərlərimizə uyğun olmayan məsələlərdir. Media qurumlar da buna riayət etməlidir".

***Ləman Əlizadə***

# XƏBƏRDARLIQ: Bu gün 31 dərəcə isti olacaq



**İyunun 24-nə gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən xəbərə görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal küləyi əsəcək. Havanın temperaturu gecə 17-22° isti, gündüz 26-31° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu olacaq. Nisbi rütubət 55-65 % olacaq.**

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-20° isti, gündüz 26-31° isti, dağlarda gecə 7-12° isti, gündüz 13-18° isti olacaq.

# Qurbanlıq üçün hansı heyvanlar kəsilməlidir?



"Qarşıdan Qurban bayramı gəlir, bayramın ilk günü iyunun 28-i daxil olur və bayram günləri 28-29 iyundur. Bayram günlərində iqtisadi durumu normal olan insanlar qurban kəsdirərsə, bu dinimizdə bəyənilər. Bu Allahın xoşuna gələn əməldir.

### QURUM RƏSMİSİ AÇIQLADI



Həcc ziyarətində olmayan insanların qurbanlıq etməsi savabdır". Bu sözləri SİA-ya açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev deyib.

Onun sözlərinə görə, Vətəndə olub, imkanı yaxşı olan şəxslərin qurban kəsib, yoxsullara paylaması savabdır: "Burada müəyyən şərtlər var ki, onlara əməl olunmalıdır. İlk növbədə Həcdə olan insanların qurban kəsməsi vacib və mütləqdir.

Qurban ilk olaraq xırda buynuzlu heyvanlardan kəsilir. Qurbanlıq olaraq kəsilən heyvan sağlam və ətli olmalıdır. Eyni zamanda 8 ayını keçmiş, 1 yaşı olan heyvanlar qurban kəsilməlidir. Qurbanlıq olaraq kəsilən xırdabuynuzlu heyvan hər bir fərd üçün 1 ədəd kəsilməlidir. Yəni bir neçə şəxs birlikdə bir xırdabuynuzlu heyvanı qurbanlıq kəsdirə bilməz. İribuynuzlu heyvanları isə bir neçə nəfər birləşərək qurbanlıq kimi kəsdirə bilər. Bu zaman mütləq heyvanın 1 yaşı olmalı və kəsdirənlərin sayının 7-ni keçməməsi məqsədəuyğundur. Qurbanlıq olaraq dəvə də kəsmək olar və 5 yaşı olmalıdır. Dəvə də təbii ki, şərikli kəsilə bilər.

Kəsilən heyvanın əti üç hissəyə bölünməli, bir hissə ailənin özünə, digər iki hissə qohumlardan başlanaraq ehtiyacı olanlara paylanılmalıdır. Eyni zamanda heyvan hissələrə bölünərkən, bütün hissələrin düzgün bölünməsinə diqqət edilməli, bölgü ədalətli olmalıdır. Qurban kəsdirmək əvəzinə pul verməyi isə dinimiz qəbul etmir".

***Səbinə Hüseynli***

# Avtomobillərin şüşələrini sındırıb oğurluq edən şəxs yaxalandı

Nərimanov rayonunda avtomobillərin şüşələrini sındıraraq qiymətli əşyalar oğurlayan şəxs saxlanılıb. DİN-dən SİA-ya verilən məlumata görə, paytaxt ərazisində avtomobillərin şüşələrini sındıraraq nəqliyyat vasitələrinin salonlarından telefon, noutbuk, pul kisələləri və digər qiymətli əşyalar oğurlayan şəxs saxlanılıb. Nərimanov Rayon Polis İdarəsinin 18-ci Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat nəticəsində hadisələri törətməkdə şübhəli bilinən Gəncə şəhər sakini İlqar Məmmədov tutulub. Araşdırmalar zamanı onun Nərimanov rayonu ilə yanaşı, paytaxtın Yasamal və Nəsimi rayonlarında da 10-a yaxın avtomobilin şüşəsini sındırdığı müəyyən edilib.



Bu şəxsin törətdiyi qanunsuz əməllərin bir neçəsi müşahidə kameraları vasitəsilə də görüntülənib. İlqar Məmmədov barəsində 18-ci Polis Şöbəsində araşdırmalar davam etdirilir.

# İstirahət zonalarında qiymət artımının qarşısını necə almaq olar?



İyunun 15-dən sonra turizmdə rəsmi olaraq yay mövsümü elan olunur. Ümumiyyətlə, yay mövsümü bütün dünyada insanların istirahətlərini planlaşdırdıqları bir dövrdür. Bu dövrdə insanlar həm ölkədaxili, həm də ölkəxaricində müxtəlif bölgələrə üz tuturlar. Bununla əlaqədar turistik bölgələrə tələbat artır və nəticədə qiymət artımı müşahidə olunur". Bu sözləri SİA-ya açıqlamasında Qlobal Sağlamlıq Turizm Şurasının baş katibi Ceyhun Aşurov deyib.Onun sözlərinə görə, turistlər üçün həmişə tövsiyə olunur ki, daha öncədən rezerv etsinlər: "Çünki ilkin tətil planlamalarında müəyyən qədər qənaət etmək mümkündür. Lakin müxtəlif səbəblərdən hər kəs bunu edə bilmir. Ona görə də təklif olunur ki, ildən-ilə istirahət zonalarının, qalma və yerləşdirmə yerlərinin sayı artırılmalıdır. Belə olduğu halda kifayət qədər rəqabət yaranacaq və qiymətlər daha əlverişli olacaq. Son dövrlər Azərbaycanda da otellərin tikintisi çox zaman alır, eyni zamanda kifayət qədər resurs tələb olunur. Amma həmçinin qeyd etməliyik ki, "Kənd Evləri" layihəsi bu məsələdə vəziyyəti yumşalda bilər".C.Aşurov sözlərinə davam edərək bildirib ki, ona görə kənd evlərinin, insanların şəxsi evlərinin məhz bu bazara daxil olması və müəyyən standartlara cavab verməklə turistlərə təklif olunması çox gözəl imkanlar yarada bilər: "İnsanlar da bundan ikitərəfli faydalana bilərlər. Birincisi, orada yaşayan və evlərini turizm üçün açıq edən əhali maddi gəlir əldə edə bilər. İkinci olaraq isə turistlər daha əlverişli qiymətə istirahət edə bilərlər".

***Ləman Əlizadə***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**